18 iyun 2021-ci il
№22 (8930)

www.muallim.edu.az
muallim@edu.gov.az

AZƏRBAYCAN MÜƏLLİMİ

Təhsil millətin gələcəyidir!
Heydər Əliyev

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

# Doğma Vətəninizə xoş gəlmisiniz!

# ŞUŞAMIZA xoş gəlmisiniz!



## İlham ƏLİYEV, Azərbaycan Respublikasının Prezidenti

Bu gün həyatımızda əlamətdar gündür, tarixi bir gündür. Bu gün biz qardaş ölkənin əziz Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanı Qarabağ torpağında, Şuşa torpağında salamlayırıq. Mən fürsətdən istifadə edərək, bütün Azərbaycan xalqı adından əziz qardaşımı Şuşada, Qarabağda salamlamaq istəyirəm.

Əziz qardaşım Azərbaycanda dəfələrlə olub, ancaq biz ilk dəfə Qarabağ torpağında - Şuşada bir yerdəyik. Bu səfərin tarixi əhəmiyyəti var. Çünki bu gün imzalanmış Birgə Bəyannamə - Müttəfiqlik haqqında Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldırır.

Bu gün Şuşada dalğalanan Azərbaycan və Türkiyə bayraqları bizim birliyimizi göstərir. İkinci Qarabağ müharibəsi başlanan gündən, ilk saatlardan əziz qardaşım, sayın Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan Azərbaycana birmənalı, dəqiq və açıq dəstək ifadə etmişdir. Müharibənin ilk saatlarından o demişdir ki, Azərbaycan tək deyil.

Biz - iki dövlətin Cümhurbaşqanı keçən ilin dekabr ayında hərbi paradı birlikdə qəbul edərkən razılaşdıq ki, növbəti görüş burada olacaq və belə də oldu. Bir daha xoş gəlmisiniz, doğma Vətəninizə xoş gəlmisiniz, Şuşamıza xoş gəlmisiniz!

## Rəcəb Tayyib ƏRDOĞAN, Türkiyə Respublikasının Prezidenti

Bu gün təbii ki, fərqli bir həyəcanın, hisslərin içindəyik. Allaha şükür olsun ki, daha əvvəl verdiyimiz sözümüzü bu gün yerinə yetiririk. Qırx dörd günlük məlum müharibənin nəticəsində Qarabağ, çox şükürlər olsun ki, sahiblərinə qovuşdu və erməni zülmündən, erməni işğalından azad edildi.

Təbii ki, Qarabağ əvvəlki ehtişamına və öz kimliyinə qovuşacaq. Buna heç şübhəmiz yoxdur. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Şuşa, Kəlbəcər, Ağdam, Xocavənd kimi Qarabağın qədim yaşayış məntəqələrinin yenidən inkişaf etdiyi günləri yaxın vaxtlarda hamımız birlikdə görəcəyik.

Bir az əvvəl qardaşımın ifadə etdiyi kimi, Şuşa Bəyannaməsi ilə əlaqələrimizin yeni dövrdəki yol xəritəsini müəyyənləşdirdik. On bir A4 səhifəsindən ibarət bu Bəyannamə Şuşada bu gün reallığa çevrilir. Bu, son dərəcə önəmlidir. Türkiyə ilə Azərbaycan arasındakı bu Bəyannamə bir sıra məsələləri əhatə edir.

Türkiyə olaraq qədim Şuşa şəhərində ən qısa müddətdə, İnşallah, baş konsulluq açmağı planlaşdırırıq. Beləliklə, bölgədə həyata keçirəcəyimiz fəaliyyətlərin daha sürətli və səmərəli şəkildə icra olunmasını da təmin edəcəyik.

# Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində Təhsil Tələbə Krediti Fondunun yaradılması və fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, əhalinin aztəminatlı təbəqələrindən olan şəxslərin təhsilə əlçatanlığını təmin etmək, təhsil almaqda bərabər imkanlar yaratmaq və təhsilin əhatə dairəsini genişləndirmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində “Təhsil Tələbə Krediti Fondu” (bundan sonra - Fond) yaradılsın.

**2.** “Təhsil Tələbə Krediti Fondunun Nizamnaməsi” təsdiq edilsin (əlavə olunur).

**3.** Müəyyən edilsin ki:

3.1. Fond təhsil tələbə kreditlərinin verilməsini təşkil edən qeyri-kommersiya hüquqi şəxsidir;

3.2. təhsil tələbə kreditinin məbləğinin yuxarı həddi hər tədris ili üçün təsdiq edilən tələbə qəbulunda nəzərdə tutulmuş ayrı-ayrı ixtisaslar üzrə ödənişli əsaslarla təhsilalana düşən illik təhsil haqlarının məbləğindən çox olmamalıdır;

3.3. Fondun fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün ictimai əsaslarla fəaliyyət göstərən 7 (yeddi) üzvdən ibarət Himayəçilik Şurası yaradılır;

3.4. Fondun fəaliyyətinə cari rəhbərliyi 3 (üç) üzvdən - sədr və onun iki müavinindən ibarət İdarə Heyəti həyata keçirir;

3.5. Fondun fəaliyyətinin təşkili və təmin edilməsi xərcləri dövlət büdcəsinin vəsaiti və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

**4.** Fondda təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

4.1. Azərbaycan Respublikasının Prezidentinə:

4.1.1. Fondun nizamnaməsinin təsdiqi və nizamnamə kapitalının miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

4.1.2. Fondun idarəetmə orqanlarının yaradılması;

4.1.3. Fondun yenidən təşkili və ləğvi barədə qərar qəbul edilməsi;

4.2. Azərbaycan Respublikasının Təhsil Nazirliyinə:

4.2.1. bu Fərmanın 4.1-ci bəndi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

**5.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş vəsait hesabına Fondun ilkin nizamnamə kapitalının formalaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.2. Fondun vəsaiti hesabına təhsil tələbə kreditlərinin verilməsi qaydasını bir ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**6.** Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə olunsun ki, Fondun vəsaiti hesabına verilmiş kreditlər üzrə müvəkkil kredit təşkilatlarının aktivlərinin risk qrupunu müəyyən etsin.

**7.** Azərbaycan Respublikasının Təhsil Nazirliyi:

7.1. “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi”ndə “Təhsil Tələbə Krediti” altsisteminin yaradılmasını təmin etsin;

7.2. Fondun dövlət qeydiyyatına alınması üçün bu Fərman qüvvəyə mindiyi gündən 3 (üç) gün müddətində “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görsün;

7.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**8.** Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi, habelə ali, orta ixtisas və peşə təhsili müəssisələri Azərbaycan Respublikası Təhsil Nazirliyinin “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi”nin sorğularının Elektron Hökumət İnformasiya Sistemi üzərindən cavablandırılmasını təmin etmək üçün bir ay müddətində zəruri tədbirlər görsünlər.

**9.** Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq, bu Fərmanın 8-ci hissəsində nəzərdə tutulmuş dövlət orqanlarının (qurumlarının) informasiya sistemlərinin və ehtiyatlarının Azərbaycan Respublikası Təhsil Nazirliyinin “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi”nə inteqrasiyasını iki ay müddətində təmin etsin.

**10.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilən Nizamnamənin 4.1-ci bəndində nəzərdə tutulmuş maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 17 iyun 2021-ci il*

# Dövlət təltifləri təqdim edilib







İyunun 11-də təhsil naziri Emin Əmrullayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə elm və təhsilin inkişafındakı böyük xidmətlərinə görə “Şərəf” ordeni ilə təltif edilən Kamal Abdullayevə bu ali mükafatı təqdim edib.

Təhsil naziri Kamal Abdullayevi təbrik edərək ona uğurlar arzulayıb, Azərbaycan təhsilinin və elminin inkişafındakı xidmətlərindən söz açıb.

Kamal Abdullayev öz növbəsində minnətdarlığını ifadə edib.

***

İyunun 11-də Təhsil Nazirliyində Prezident İlham Əliyevin sərəncamlarına əsasən təltif olunan iki universitetin əməkdaşlarına dövlət təltiflərinin təqdimetmə mərasimi keçirilib.

Mərasimdə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin 100 illiyi münasibətilə və Azərbaycanda təhsilin inkişafındakı xidmətlərinə görə bu ali təhsil müəssisəsinin əməkdaşları, eyni zamanda Azərbaycan Milli Konservatoriyasının 20 illiyi münasibətilə və Azərbaycanda milli musiqi təhsilinin inkişafındakı xidmətlərinə görə sözügedən ali təhsil müəssisəsinin əməkdaşlarına dövlət təltifləri təqdim edilib.

Mərasimdə çıxış edən təhsil naziri Emin Əmrullayev təltifə layiq görülən universitet əməkdaşlarını yüksək dövlət mükafatlarına layiq görülməsi münasibəti ilə təbrik edib və gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Daha sonra universitetlərin əməkdaşlarına dövlət təltifləri təqdim olunub.

***

İyunun 12-də Təhsil Nazirliyində Prezident İlham Əliyevin sərəncamlarına əsasən, Azərbaycan Texniki Universitetinin 70 illiyi münasibətilə Azərbaycanda mühəndis kadrlarının hazırlanması və texniki elmlərin inkişafında xidmətlərinə görə bu ali təhsil müəssisəsinin təltif olunan əməkdaşlarına dövlət təltiflərinin təqdimetmə mərasimi keçirilib.

Mərasimdə çıxış edən təhsil naziri Emin Əmrullayev Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə AzTU-nun professor-müəllim heyətinin bir qrupunu yüksək dövlət mükafatlarına layiq görülməsi münasibəti ilə təbrik edib və gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Daha sonra universitetin əməkdaşlarına dövlət təltifləri təqdim olunub.

# “Vətəndaş müraciətləri” xidməti istifadəyə verilib

Təhsil Nazirliyi tərəfindən vətəndaş müraciətlərinə baxılması işinin daha da təkmilləşdirilməsi və əlçatanlığın təmin edilməsi məqsədilə *https://portal.edu.az/* platformasına “Vətəndaş müraciətləri” xidməti əlavə olunub. Xidmət bu sahədə aparılan işlərin daha çevik, şəffaf və keyfiyyətli təşkili ilə yanaşı, müraciətlərin elektron qaydada göndərilməsi, hər bir müraciətin vətəndaş tərəfindən addım-addım izlənilməsi və cavab alınması proseslərini asanlaşdıran üstünlüklərə malikdir.

Təhsil Nazirliyinə və tabeliyindəki qurumlara “Vətəndaş müraciətləri” elektron xidməti vasitəsi ilə göndərilən müraciətlər tətbiq olunmuş təkmil daxili (CRM) sistem hesabına daha qısa zaman çərçivəsində cavablandırılacaq. Belə ki, yazılı müraciətlərin icrası ilə müqayisədə elektron şəkildə daxil olan müraciətlər icra müddətini 2 dəfədən çox qısaltmış olacaq.

Qeyd edək ki, vətəndaşların yazılı müraciətlərində şəxsi məlumatlarını (ünvan, əlaqə vasitələri) düzgün qeyd etməməsi və yaxud natamam qeyd etməsi icra prosesini çətinləşdirir və bəzi hallarda müraciətin statusunun izlənilməsini qeyri-mümkün edir. Bu səbəbdən Təhsil Nazirliyinə müraciət etmək istəyən vətəndaşlara *https://portal.edu.az/* platformasında qeydiyyatdan keçməklə, öz şəxsi kabinetləri vasitəsi ilə rahatlıqla elektron qaydada müvafiq xidmətdən yararlanmaq tövsiyə olunur.

"Son zəng"i 2021-ci ilin məzunları QƏLƏBƏ sevinci ilə yola saldı

# 84069 şagird məzun oldu



2020-2021-ci tədris ilində respublikanın ümumtəhsil məktəblərinin IX siniflərini 131227, XI siniflərini isə 84069 nəfər şagird bitirib. IX sinfi bitirənlərdən 60403 nəfəri qız, 70824 nəfəri oğlan, XI sinfi bitirənlərdən isə 38461 nəfəri qız, 45608 nəfəri oğlandır.

2020-2021-ci tədris ilində respublika üzrə ümumtəhsil məktəblərində fəaliyyət göstərən 6110 məktəbəhazırlıq qrupunu 106580 uşaq başa vurub.

2021-2022-ci tədris ilində respublika üzrə 158608 uşağın I sinifdə təhsil alacağı proqnozlaşdırılır.









# Təhsil naziri “Son zəng” tədbirində

## Vətən müharibəsi zamanı çoxsaylı mərmi atəşinə tuş gələn Tapqaraqoyunlu məktəbi neçə-neçə uğurlu məzunlar yetişdirib





İyunun 14-də Goranboy rayonu Tapqaraqoyunlu kənd tam orta məktəbində “Son zəng” tədbiri keçirilib.

Tədbirdə təhsil naziri Emin Əmrullayev, Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev, müəllim və şagirdlər iştirak ediblər.

“Son zəng” tədbiri Dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Tədbirdə çıxış edən təhsil naziri Emin Əmrullayev əvvəlcə məzunları XI sinfi uğurla başa vurmaları münasibətilə təbrik edib, onlara yeni-yeni nailiyyətlər arzulayıb. Emin Əmrullayev 2020-ci ilin Azərbaycanın tarixinə qızıl hərflərlə yazılan dövr olduğunu xatırladıb. Nazir bildirib ki, artıq bu tədris ilinin “Son zəng”ini 2021-ci ilin məzunları Qələbə sevinci ilə yola salır.

Təhsil naziri qeyd edib ki, Goranboy rayon Tapqaraqoyunlu kənd tam orta məktəbi 44 günlük Vətən müharibəsi zamanı çoxsaylı mərmi atəşinə tuş gəlsə də, məktəblilər, məktəbin kollektivi heç nədən qorxmadan, çəkinmədən daima işlərinin başında olub, neçə-neçə uğurlu məzunlar yetişdirib. Bu, həm də dövlətə, dövlətimizin başçısına olan inam və etimadın göstəricisidir.

Daha sonra çıxış edən Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev də öz növbəsində məzunları təbrik edib.

“Son zəng” tədbirindən sonra təhsil naziri Emin Əmrullayev məzunlarla görüşüb, onlarla səmimi söhbət edib. Məzunları bir daha təbrik edən təhsil naziri onlara yeni həyat mərhələsində uğurlar arzulayıb.

Daha sonra təhsil naziri məktəbdə yaradılmış şəraitlə tanış olub. Bildirilib ki, Goranboy rayonu Tapqaraqoyunlu kənd tam orta məktəbi 1993-cü ildən Azərbaycanın Milli Qəhrəmanı, məktəbin məzunu, şəhid Niyazi Aslanovun adını daşıyır. Bu məktəb I Qarabağ müharibəsi zamanı düşmənin atəşi nəticəsində tamamilə yanıb, II Qarabağ müharibəsi zamanı isə çoxsaylı mərmi atəşinə tuş gəlib. 1998-ci ildə 16 otaqdan ibarət məktəb binası tikilib. 2011-ci ildə 450 şagird yerlik müasir standartlara cavab verən yeni məktəb binası istifadəyə verilib.

Məktəbdə hazırda 299 şagird təhsil alır.







# Şahlar Əsgərova nazirliyin "Fəxri Fərman"ı təqdim edilib

İyunun 16-da Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri Şahlar Əsgərovun 80 illik yubileyi münasibətilə görüş keçirilib.

Təhsil naziri Emin Əmrullayevin iştirakı ilə baş tutan görüşdə Şahlar Əsgərov təhsilin inkişafında xidmətlərinə görə və anadan olmasının 80 illik yubileyi münasibətilə Təhsil Nazirliyinin "Fəxri Fərman"ı ilə təltif edilib.

Təltifi təqdim edən təhsil naziri Emin Əmrullayev Şahlar Əsgərovun təhsilin və elmin inkişafındakı rolunu xüsusi dəyərləndirib, onu yubileyi münasibətilə təbrik edərək cansağlığı arzulayıb.

Şahlar Əsgərov da öz növbəsində təşəkkürünü ifadə edib.

## Təhsil nazirinin növbəti videoqəbulu keçiriləcək

Təhsil naziri Emin Əmrullayev 25 iyun 2021-ci il saat 16:00-da Göygöl, Goranboy, Ağstafa, Qazax, Tovuz, Şəmkir, Gədəbəy, Daşkəsən, Kəlbəcər, Xocalı rayonları və Gəncə şəhərinin sakinlərini videobağlantı vasitəsilə qəbul edəcək. Qəbulda həmin bölgələrdə müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak edə bilərlər.

Qeyd olunan rayon və şəhər sakinləri 17-23 iyun (saat 18:00-dək) 2021-ci il tarixlərində Təhsil Nazirliyinin Çağrı Mərkəzinin "146-1" nömrəli telefonuna (yalnız iş günləri) zəng etməklə və ya nazirliyin rəsmi saytı *(https://edu.gov.az/contact_us)* vasitəsilə elektron müraciət edərək videoqəbula yazıla bilərlər.

Videoqəbulun təşkil edilməsində əsas məqsəd vətəndaşların Təhsil Nazirliyinə müraciət imkanlarını müasir texnologiyalardan istifadə etməklə genişləndirmək, regionlarda yaşayanlara nazirliyin inzibati binasına gəlmədən vəzifəli şəxslərlə videobağlantı vasitəsilə birbaşa əlaqə imkanının yaradılmasıdır.

Vətəndaşlar videoqəbulun keçirildiyi otağa qəbula yazılanlar siyahısı və şəxsiyyəti təsdiq edən sənədlər əsasında buraxılacaqlar. Qəbulun keçirildiyi yerdə müvafiq sanitariya-gigiyena normalarına əməl olunmalıdır. Videoqəbulda bir müraciətlə bağlı eyni vaxtda birdən artıq şəxsin iştirakına icazə verilmir.

Videoqəbulda vətəndaşın müraciəti ilə bağlı lazımi sənədlərin təqdim edilməsi zərurəti yarandıqda, ona həmin sənədləri birbaşa qəbulun keçirildiyi qurumun səlahiyyətli işçisinə və ya elektron formada təqdim etmək imkanı yaradılacaq. Həmin sənədlər araşdırılması üçün Təhsil Nazirliyinə yönləndiriləcək.

Araşdırma tələb edən müraciətlərin cavablandırılması vətəndaşın qeyd etdiyi elektron ünvan vasitəsilə elektron formada, yaxud müraciət edənin xahişinə əsasən poçt ünvanı ilə yazılı və ya əlaqə telefonu vasitəsilə şifahi qaydada həyata keçiriləcək.

# Təhsil İnstitutunun rəhbər heyəti ilə görüş

**Təhsil nazirinin müavini Firudin Qurbanov Təhsil İnstitutunun (ARTİ) inzibati binası, iş şəraiti və kollektivi ilə tanış olub. ARTİ-nin rəhbər heyəti ilə keçirilən görüşdə çıxış edən Firudin Qurbanov institutun təhsilin inkişafındakı mühüm rolunu vurğulayıb.**



### Tədqiqatların strukturunun dəyişməsi, təhsildə innovativ metodların tətbiqi və gələcəyə yönəlik peşələrin önə çıxması institutun fəaliyyət istiqamətlərini genişləndirməyi zəruri edir

Nazir müavini elmi tədqiqatların təhsilin məzmununda əhəmiyyəti, təhsil müəssisələrində ehtiyac duyulan tədqiqat mövzuları, yeni metodik vəsaitlər, müəllimlərin peşəkar inkişafı, təhsilin məzmununun bacarıq əsaslı təhsilə uyğunlaşdırılması, tədris resurslarının yenilənməsi, beynəlxalq və milli qiymətləndirmələrin təhlili kimi vacib məqamların ARTİ-nin əsas fəaliyyət istiqamətlərindən olduğunu qeyd edib. Firudin Qurbanov bildirib ki, son dövrdə tədqiqatların strukturunun dəyişməsi, təhsildə innovativ metodların tətbiqi və gələcəyə yönəlik peşələrin önə çıxması institutun fəaliyyət istiqamətlərini genişləndirməyi zəruri edir. Beynəlxalq tədqiqat mərkəzləri ilə əməkdaşlıq, ali təhsildə gələcəyin ixtisaslarına uyğun proqramların araşdırılması, təhsilin müxtəlif pillələri arasında inteqrasiyanın təşkili, təhsil müəssisələrində innovativ mühitin təşviqi, pedaqoji fəaliyyətə hazırlaşan tələbələrin yeni dövrün tələblərinə uyğun təcrübə proqramı keçməsi kimi fəaliyyətlər sözügedən istiqamətlərdəndir.

Firudin Qurbanov qeyd edib ki, indiki dövr süni intellektin sənaye və istehsalatda geniş tətbiq olunması ilə səciyyələnir. COVID-19 pandemiyası kimi təhdidlərin təhsil sisteminə təsirindən danışan nazir müavini bildirib ki, indiki şəraitdə təhsil müəssisələri qarşısında hərtərəfli, müasir biliklərlə yanaşı, həm də ünsiyyət qurma bacarıqlarına malik, komanda mühitində işləməyi, öz işini proqnozlaşdırmağı bacaran gənc mütəxəssislərin formalaşdırılması prioritet təşkil edir. Firudin Qurbanovun sözlərinə görə, təhsil müəssisələri təkcə bilik və bacarıqlara deyil, ən əsası insani keyfiyyətlərə və mənəvi dəyərlərə sadiq insan yetişdirməlidir ki, onlar Vətənə və cəmiyyətə fayda versinlər. Təhsil nazirinin müavini gənclərin milli ruhda tərbiyəsi, onlarda vətənpərvərlik hissinin aşılanmasında da ali təhsil müəssisələrinin qarşısında duran mühüm vəzifələrdən danışıb. Ölkənin təhsil müəssisələrində gənclərlə müvafiq işlərin aparılmasının zəruriliyini qeyd edən Firudin Qurbanov gənclərin mədəni-intellektual tədbirlərə, idman yarışlarına cəlb olunmasının xüsusi vacibliyini vurğulayıb. Nazir müavini təhsil müəssisələrində təlim-tərbiyə işinin gedişi ilə bağlı müvafiq tövsiyələrini institut əməkdaşları ilə bölüşüb.

ARTİ-nin direktoru Rüfət Əzizov çıxışında hazırda institut tərəfindən görülən işlər, icra edilən layihələr və gələcək planlar haqqında danışıb.

Qarşılıqlı fikir mübadiləsi şəklində davam edən görüşdə təhsil müəssisələrində elmi fəaliyyət bazasının müasir tələblərə uyğun təkmilləşdirilməsi, tədris resursları, doktorantura təhsilinin inkişafı, pedaqoji-psixoloji şuranın yaradılmasının zəruriliyi, müəllimlərin mütəmadi olaraq təlimlərdə iştirakının təmin edilməsi, bu baxımdan ARTİ və pedaqoji kadr yetişdirən təhsil müəssisələri ilə əməkdaşlığın gücləndirilməsi, təhsildə innovativ qiymətləndirmə və monitorinq mexanizmlərinin tətbiqi və bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi, həmçinin digər məsələlərlə bağlı təkliflər səsləndirilib.

Sonda ARTİ-nin yeni inkişaf strategiyasının hazırlanması və bunun üçün müxtəlif strukturlardan təkliflərin verilməsi ilə bağlı qərar qəbul edilib.

# Ümumtəhsil məktəblərində "SON ZƏNG"

## Şabran şəhər 1 nömrəli tam orta məktəbdə



İyunun 14-də ölkəmizin ümumi təhsil müəssisələrində "Son zəng" tədbirləri keçirilib.

Şabran şəhər 1 nömrəli tam orta məktəbdə keçirilən "Son zəng" tədbirində təhsil nazirinin müavini Firudin Qurbanov, Şabran Rayon İcra Hakimiyyətinin başçısının müavini İlkin Ağayev, Şabran Rayon Təhsil Şöbəsinin müdiri Emin Mövsümov, müəllim və şagirdlər iştirak ediblər.

Tədbir Dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Tədbirdə çıxış edən təhsil nazirinin müavini Firudin Qurbanov 2020-2021-ci tədris ilinə təsadüf edən Azərbaycanın tarixi qələbəsindən söz açıb. Təhsil işçilərinin Zəfərin qazanılmasındakı rolunu qeyd edən nazir müavini döyüşə yollanan bütün təhsil işçilərinə təşəkkürünü ifadə edib, şəhidlərə Allahdan rəhmət diləyib.

Gənclərin vətənpərvərlik ruhunda yetişdirilməsinin vacibliyini bir daha diqqətə çatdıran Firudin Qurbanov məzunları təbrik edərək, onlara öz tövsiyələrini çatdırıb.

Sonra Şabran Rayon Təhsil Şöbəsinin müdiri Emin Mövsümov çıxış edərək tədris ilinin yekunları barədə məlumat verib. Bildirilib ki, bu il rayon üzrə 500 XI sinif şagirdi məzun olur.

Mərasim şagirdlərin hazırladıqları "Son zəng" ədəbi-bədii kompozisiya ilə davam etdirilib.

## Beyləqan rayonu Dünyamalılar kənd 1 nömrəli tam orta məktəbdə



Beyləqan rayonu Dünyamalılar kənd 1 nömrəli tam orta məktəbdə də "Son zəng" tədbiri keçirilib. Tədbirdə təhsil nazirinin müavini İdris İsayev, Beyləqan Rayon Təhsil Şöbəsinin müdiri Suliddin Əsgərov, müəllim və şagirdlər iştirak ediblər.

Tədbir Dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Tədbirdə çıxış edən təhsil nazirinin müavini İdris İsayev pandemiya dövründə tədrisin təşkilindən, təhsilə olan dövlət qayğısından danışıb. 2020-2021-ci tədris ilinin yadda qalan məqamlarını diqqətə çatdıran İdris İsayev çıxışının sonunda "Son zəng" münasibətilə məzunları təbrik edib, onlara uğurlar arzulayıb.

Beyləqan Rayon Təhsil Şöbəsinin müdiri Suliddin Əsgərov çıxış edərək rayon üzrə təhsilin inkişafına dair ümumi məlumat verib, məzunları təbrik edib.

Mərasim şagirdlərin ifasında ədəbi-bədii kompozisiya ilə davam etdirilib.

## Bakı şəhəri 220 nömrəli tam orta məktəbdə



Bakı şəhəri 220 nömrəli tam orta məktəbdə keçirilən "Son zəng" tədbirində təhsil nazirinin müavini Muxtar Məmmədov, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini Xəyalə Əhmədzadə, müəllim və şagirdlər iştirak ediblər.

Tədbir Dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Tədbirdə çıxış edən təhsil nazirinin müavini Muxtar Məmmədov əvvəlcə məzunları təbrik edib, onlara yeni həyat mərhələsində uğurlar arzulayıb. Muxtar Məmmədov gənc nəsildə təhsilə, elmə marağın daha da artırılması və geniş dünyagörüşünün formalaşdırılmasının ən ümdə məsələlərdən olduğunu bildirib. Nazir müavini pandemiya şəraitində təhsilin əlçatanlığı üçün atılan addımlara da toxunub.

Çıxış edən digər qonaqlar da məzunlara xoş arzularını çatdırıblar.

Tədbir şagirdlərin ifasında "Zəfər" kompozisiyası ilə yekunlaşıb.










# Paytaxt məktəblilərinin “Son zəng” sevinci

# Biz qalib ölkənin ilk məzunlarıyıq!

## Belə bir tarixi gün yaşadığımıza görə çox sevinirik



İnsan həyatında elə günlər olur ki, ömür boyu unudulmur. “Son zəng” də həyatda bir dəfə olan və bütün ömür boyu xoş hisslərlə xatırlanan hadisələrdəndir.

Bu ilki “Son zəng” tədbirində iştirak etmək üçün Bakıdakı 14 nömrəli tam orta məktəbə yollandım. Məktəb həyətində bu günə özəl xüsusi bir canlanma var idi. Böyüklü-kiçikli hər kəsin - şagirdlərin, müəllimlərin, valideynlərin çöhrəsindəki sevinc də bu günün qeyri-adiliyindən xəbər verirdi. Boyunlarından asdıqları ağ və qırmızı lentin üstündə “Məzun -2021” yazılan məktəbli oğlan və qızlar - builki məzunlar “Koroğlu” operasının uvertürasının sədaları altında mətin addımlarla meydanda ara məsafələrini gözləməklə, onlar üçün çəkilmiş dairədə öz yerlərini tutdular.

Dövlət himni səsləndirildikdən sonra meydana Dövlət Bayrağı gətirildi və təntənəli şəkildə qaldırıldı. Vətənimizin ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olan qəhrəmanlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Aparıcılar son dəfə şagird kimi məktəb həyətinə yığışan onbirinciləri təbrik etmək üçün ən şirin, ən kövrək sözlərdən çələng hördülər. Mərasimdə məzunlar tərəfindən vurğulandı ki, onlar güclü, yenilməz və qalib ölkənin ilk məzunlarıdır. Məzunlar çıxışlarında Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Müzəffər Ordumuzun Vətən müharibəsində qazandığı böyük qələbəsini tariximizin zəfər salnaməsi, parlaq səhifəsi kimi dəyərləndirdilər.

Məktəbin direktoru Rafail Hüseynov çıxış edərək təhsil ocağında 1565 şagirdin təhsil aldığını, onlardan 3 sinif üzrə 63 şagirdin bu gün məzun olduğunu diqqətə çatdırdı. Direktor sevinc və həyəcan içində olan məzunlara gələcək həyatlarında uğurlar dilədi, qalib ölkənin məzunlarını təbrik etdi.

R.Hüseynov məzunlara zəfər tarixi barədə danışaraq bu tarixi hadisələri həmişə yaddaşlarında saxlamalarını, gələcəkdə hansı peşəyə sahib olmalarından asılı olmayaraq vətənpərvər olmağı, onların hər birinin müstəqil Azərbaycanın vətəndaşı olaraq ölkəmizin gələcək inkişafı naminə həyata keçiriləcək proseslərdə fəal iştirak edəcəklərini vurğuladı.

Onbirincilər ən kövrək anlarında, sevincli-kədərli dəqiqələrində qayğılarını, düşüncələrini bölüşdükləri sinif müəllimlərinin - Rəna Varşabovanın, Anna Mixayliçenkonun, Məhəbbət Səmədovanın, Yekaterina Araşinanın, Esmira Əliyevanın adlarını iftixarla çəkdilər. Gözlərində-könüllərində ucalıqdan heç vaxt enməyəcək ibtidai sinif müəllimləri - Gülşən Əhmədli, Leyla Kərimova, Mahir Əliyev bir-bir söz alıb, ən şirin diləklərini məzunlara yetirdilər. Onlar məzunlara Azərbaycanımıza layiq vətəndaşlar, cəmiyyətimiz üçün faydalı olmalarını arzuladılar.

Aparıcılar onbirincilərin ürək sözlərinə ayna tutdular. Qloballaşan dünyadan baş çıxarmaq üçün onlara elmin sirlərini öyrədən, yeni texnologiyalarla dostlaşdıran fənn müəllimlərindən minnətdarlıq duyğusu ilə danışdılar.

Nəhayət, mərasimin ən kövrək anlarından biri gerçəkləşdi. Məzunlar üçün on bir illik məktəb həyatının “Son zəng”i çalındı.

*11 a sinif şagirdi Sənan Abbasov:* - “Doğma məktəb! Sənin qoynunda keçirdiyimiz bu 11 ildə, bəlkə də, bu gün yeganə gündür ki, biz onu həm sevinclə, həm də kədərlə qarşılayırıq. Sevinirik, çünki uşaqlığımızdan hər birimiz müstəqil olacağımız günü səbirsizliklə gözləyirdik. Artıq məktəbi bitirərək buna nail olduq. Bu gündən etibarən məktəb illərini geridə qoyaraq, həyatın enişli-yoxuşlu yolları ilə irəliləyəcəyik. Bu yolda büdrəyən də olacaq, alnıaçıq irəli gedən də, dönüb keçmiş illərə həsrətlə boylanan da. Kədərlənirik, çünki 11 il bir yerdə sevincimizi paylaşıb, kədərimizi bölüşdüyümüz mehriban sinif yoldaşlarımızdan, anamız qədər doğma olan sevimli müəllimlərimizdən, hətta sinif otaqlarımızdan, üzərinə tabaşirlə yazılar yazdığımız sinif lövhələrindən ayrılacağıq. Gələcəklə bağlı arzularım var əlbəttə. İstəyirəm ki, Azərbaycanımıza, Vətənimizə layiq vətəndaş kimi töhfələrimizi verək. Sevinirik ki, bu gün ölkəmiz daha da güclü və qüdrətlidir. Dünyaya səs salan 44 günlük müharibə və bizim qəhrəmanlarımızın igidliyi hər birimizdə fəxarət hissi oyatdı. Qardaşım Sənan Abbasov da 44 günlük müharibənin iştirakçısıdır. Mən xalqımızla fəxr edirəm”.

*11 b sinif şagirdi Leyla Əliyeva:* - “Hər bir insanın həyatında məktəb illəri böyük rol oynayır. Məktəb bizə ikinci bir ailə olub. Biz burada yazıb-oxumağı da, vətəni sevməyi də, bir-birimizə qardaş-bacı olmağı da öyrənmişik. Bu gündən etibarən biz məktəbə şagird kimi yox, müstəqil Azərbaycanın azad gəncləri kimi gələcəyik. Bundan sonrakı həyatımızda ölkəmizin adına layiq vətəndaş olacağıq. Yoldaşlarım kimi mən də bu fikri əlavə etmək istərdim ki, çox sevincli bir gün yaşayırıq. İllərdir düşmən tapdağı altında olan torpaqlarımız yenidən öz sahiblərinə qayıtdı. Torpaqlarımız doğma Azərbaycanına qovuşdu. Dədə-baba torpaqlarımız erməni vandallarının əsarətindən azad olundu. Mən öz sevinc hisslərimi sözlə ifadə edə bilmirəm. Belə bir tarixi gün yaşadığıma görə çox sevinirəm”.

*11 c sinif şagirdi Elvira Mutafayeva:* - “11 ildir biz bu doğma məktəbdə hər gün yeni-yeni biliklərə yiyələnib, müstəqil həyata hazırlaşmışıq. Bu gün bizim qəlbimizi sevinc hissləri ilə yanaşı, dərin bir minnətdarlıq hissi də bürüyüb. Həyatlarını yolumuzda şam kimi əridən valideynlərimizə, yorulmadan elmin çətin yollarında yolumuza nur çiləyən, əlimizdən tutub bizi daim irəliyə aparan müəllimlərimizə, sinif rəhbərlərimizə minnətdarlığımızı çatdırır, bütün məktəb kollektivinə sonsuz təşəkkürümüzü bildiririk”.

**Rəşad ZİYADOV**



**İyunun 14-də 27 nömrəli tam orta məktəbdə “Son zəng” tədbiri keçirilib. Tədbirdə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Mehriban Vəliyeva, məktəb rəhbərliyi, məhdud sayda müəllimlər və məzunlar iştirak ediblər.**

“Son zəng” tədbiri Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Məktəbin direktoru K.Həsənova məzunları təbrik edib və onlara gələcək həyatlarında uğurlar diləyib. Könül Həsənova məktəbdə ümumilikdə, 2 274 şagirdin təhsil aldığını, onlardan 114 nəfərin bu il məzun adını qazandığını bildirib.

Tədbirdə çıxış edən BŞTİ-nin müdiri Mehriban Vəliyeva məktəb həyatını başa vurub məzun adı alan onbirinciləri təbrik edib, onlara müstəqil və qalib Azərbaycanın layiqli vətəndaşları olmağı, bilik və zəhmətləri sayəsində nailiyyətlərini daha da artırmağı arzulayıb.

Ulu öndər Heydər Əliyevin “Təhsil millətin gələcəyidir” sözlərini xatırladan İdarə müdiri həmin parlaq gələcəyin məhz gənclərin əlində olduğunu və onların bunu layiqincə dəyərləndirmələrinin vacibliyini vurğulayıb. M. Vəliyeva Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təhsilə göstərdiyi dövlət qayğısının Azərbaycana gələcək üçün yüksək səviyyəli, intellektual kadrların yetişdirilməsi və millətin daha aydın sabahına xidmət etdiyini diqqətə çatdırıb.

Tədbir məzunların hazırladıqları ədəbi-bədii kompozisiyalarla davam etdirilib.

Qeyd edək ki, “Son zəng” tədbiri ümumi təhsil müəssisələrinin həyətyanı ərazisində sosial məsafə gözlənilməklə və açıq hava şəraitində 1 saatdan artıq olmamaqla keçirilib. XI sinif şagirdlərinin sayı 100 nəfərdən çox olan ümumi təhsil müəssisələrində tədbir iki mərhələdə təşkil olunub.

## Qarabağ gündəliyi



# “Biz döyüşdük, torpaqlarımızı geri aldıq”

**Müəllim işlədiyi kəndi “7 oğul istərəm” filmindəki dağlara oxşadır, “Oğul istəyir ora çıxsın. Kəndə gedib çıxmaq özü bir qəhrəmanlıqdır”, - deyir “Qarabağ gündəliyi”nin budəfəki qəhrəmanı Tərlan Fərəcov. Qəbələ rayonu Laza kənd ümumi orta məktəbində texnologiya müəllimidi. Çətinliklərə baxmadan həftədə iki dəfə Oğuzdan çıxıb, qarlı dağlar aşıb, xeyli el dolaşıb vaxtında dərsinə çatır. Müəllimliyə sevgisi onu el-el, oba-oba dolaşmaq bahasına da olsa, işini görməyə vadar edir. Müəllimlikdə qəhrəmanlıq zirvəsini fəth edən gənc müəllim həm də müharibə qəhrəmanıdı. Yetişməkdə olan nəslin yoluna işıq tutmağa çalışan, onların yaşadığı ölkəni abad, bütöv, başıuca məmləkətə çevirmək üçün silaha sarılan Vətən müharibəsi iştirakçısı, “Kəlbəcərin azad olunmasına görə” medallı Qəhrəman Azərbaycan müəllimini daha yaxından tanıyaq.**

## Vətən müharibəsi iştirakçısı Tərlan Fərəcov: “Milli birliyin ruhlandırdığı qədər heç nə ruhlandırmırdı ordumuzu”

### Müəllim ailəsi

Onun öncəliyi müəllimlikdi. İşini yerinə yetirmək üçün hara olsa, gedər. Laza kəndinə getdiyi kimi: “Qəbələyə həftənin 2 günü gedirəm. İşlədiyim Laza kəndi ən ucqar kəndlərdəndir.Oraya maşınların getməyi bir problemdir. Xüsusən də qışda. Əsas məqsəd müəllimlikdi. İşimi sevirəm. Gücüm çatdığı qədər vəzifəmi yerinə yetirməyə çalışıram. Sevdiyim və yiyələndiyim bu işi əlimdən vermək istəmərəm. Böyük ümidlərlə Oğuz rayonunda çıxacaq vakansiyanı gözləyirəm. Yer olarsa, rayonumuzda işləmək istəyirəm. Bu ümidlə müəllimlərin işə qəbulu üzrə müsabiqəyə qatılmışam”.

Hardadı bu cavanda müəllimlik sevdası? - deyə düşünürsünüzsə, dərhal cavab verək: anasından. Anası Yaxşı müəllim hər iki oğlunun müəllim olması üçün əlindən gələni edib. Tayıflı kəndinin ibtidai sinif müəllimi müəllimliyi çox sevib, oğlanlarına da sevdirib. İndi ailənin gözü Oğuz rayonundakı məktəblərdən çıxacaq vakansiyadadı:“Anam və qardaşım da müəllimdir. Anamız istiqamətləndirib bizi də. Müəllimliyi o sevdirib. Evdə yalnız atam ustadır. Evdə bizim summativlərin əlindən tərpənə bilmir”.

Tərlan Fərəcov ilk dəfə müəllimlərin işə qəbulu müsabiqəsinə Kolleci bitirən kimi - 2018-ci ildə qatılıb və 46 bal toplayıb. Vakansiya olmadığı üçün yalnız 2019-cu ildən İmişlidə işə başlaya bilib. Buludlu kəndində ilk dəfə dərsə girib. 2020-ci ildə yerdəyişmə müsabiqəsinə qatılaraq Oğuza məsafəcə bir az yaxınlaşıb. Qəbələ rayonunun Laza kəndində işə başlayıb.

### Hərbi xidmətə gedəndə tələbəydi, müharibəyə gedəndə müəllim

Tərlan Fərəcov Oğuzun Tayıflı kəndindəndi. Şəhid Oqtay Xəlilov adına Tayıflı kənd tam orta məktəbin və Azərbaycan Dövlət Pedaqoji Kollecinin məzunudur. Texnologiya müəllimliyi ixtisası üzrə təhsil alıb: “2012-ci ildə kollecə qəbul olundum. Akademik məzuniyyət götürüb hərbi xidmətə getdim. 2013-cü ildə Qazax rayonunda xidmət elədim. Qazax-Ağstafa istiqamətində bütün sərhəd postlarında xidmət etmişəm. Bir sözlə, hərbi xidmətdə ön cəbhədə olmuşam. Əvvəlcə qumbaraatan köməkçisiydim. Sonradan atıcı kimi ixtisaslaşdım, post əsgəri oldum”.

Vətən müharibəsi başlayanda o da əsgər çantası hazırlayan yüzlərlə müəllimdən biri olub. Hər birində 25 nəfər olmaqla 3 maşın oğuzluyla Vətənin səsinə səs veriblər. 5 gün təlimlərdən sonra sentyabrın 26-da Murovdağ istiqamətindəki mövqelərdə o da yerini alıb. Müharibənin ilk 10 günü çox ağır keçib. Hələ müharibənin qanlı üzünə, gurultulu səsinə alışmadan vahimə yaradan görüntüsünə, faciəvi nəticələrinə alışmalı olub. Ona görə də həmin günlər onun xatirələrində ən ağır, ən acı, ən unudulmaz günlərə çevrilib: “Sentyabrın 27-də səhər saatlarından döyüşlər başladı. İlk 10 gündə özümə qardaş bildiyim döyüş yoldaşlarım şəhadətə yüksəldi. Oktyabrın 1-də Nurlan Əfəndiyev, Şahin Cəfərli, Elman Babayev və başqa döyüşçü dostlarım yanımdaca şəhid oldular. Nurlan Əfəndiyev Oğuzun Xalxalqışlaq kəndindəndir. Eyni rayondan olsaq da, onunla sentyabrın 27-də tanış olduq. Bir həftəyə yaxın müddətdə paylaşdığımız mühit bizi yaxınlaşdırdı. Qardaşdan yaxın hiss edirdim onu özümə. Biz bir neçə günün içərisində onunla elə yaxınlaşdıq. Birlikdə ac-susuz qaldıq, bir yatıb, bir durduq. Çox cəsarətliydi. Özünü döyüşə atırdı. Döyüşmək, ancaq irəli getmək barədə düşünürdü. Getdi də. Məndən qabağa düşüb şəhid oldu. Məni isə yaxınlığımıza düşən minamyot zərbəsindən qaya xilas etdi. 2-3 saniyəlik ara ilə onlardan geridə olmasaydım, o gün onlarla mən də şəhid ola, yaralana bilərdim. Amma o gün orda yaşadıqlarım yaralanmaqdan, ya da ölümdən daha az ağır deyil. Qarda, soyuqda Torpağın üstündə bir yerdə yatdığım, cəmi 10 gündə tanısam da, qardaş bildiyim oğlanları itirmək, özü də gözlərimin qarşısında şəhid olmalarına şahidlik eləmək qədər ağır heç nə ola bilməz”.



### Kənd müəllimi Vətən müharibəsində snayper oldu

Döyüşlərə Murovdağdan başlayıb: ““Zirvə” deyilən yüksəklikdə olmuşuq. “Canavar”, “Ömər” postu istiqamətlərində döyüşmüşəm. Son döyüş mövqeyim isə Kəlbəcərdə olub. İstisuda, Qaragöl və Ağgöldəki mövqelərimizdə post xidməti yerinə yetirmişəm. Hərbi xidmətdə cəmi 2 ay snayper olmuşdum. Posta çıxanda vəzifəmi dəyişmişdilər. Müharibə vaxtı da snayper vəzifəsi verdilər. Hərbi xidmətdən müəyyən təcrübəm olduğundan, bu vəzifə mənimçün yad deyildi”.

Nəinki yad, əksinə snayperlik onun üçün çox maraqlı olub - geyimindən tutmuş silahına qədər: “Snayperliyin maraqlı cəhəti odur ki, taktiki qruplarda təkdir. 30 nəfərlik taktiki qrupa 1 snayper təyin edilir. Snayperin xüsusi geyimi, ayrıca mövqeyi olur. Özünə elə yer seçməlidir ki, düşmən onu dağdan, dərədən, ağacdan, koldan ayıra bilməsin. Silahının üstünə işıq düşməməli, snayper özü ətrafdan seçilməməlidi. Bütün manqanı snayper qoruyur. Düşmənin də gözü vurmaq üçün məhz snayperi axtarır. Gizlənmək prosesinin özü belə maraqlıdır. Bunun üçün hər şeydən - ağac, kol, qaya və s. istifadə edir, maskalanaraq gizlənirdim. Bütün bunlar, yaxşı gizlənməyin özü belə snayperin üstünlükləridir və bu vəzifə mənim üçün çox maraqlı gəlirdi. İnsan, həqiqətən, çox maraqlı hisslər keçirir. Snayperlərin ilk hədəf olmağı vəzifəni çətinləşdirir, ancaq çətin olduğu qədər də maraqlı olur”.

### Ölümlə nəfəs-nəfəsə

Həyatla ölüm arasında məsafə çox qısadı. Ancaq müharibədə bu məsafə dəfələrlə azalır. Hər anın ölüm demək olduğu bir yerdə insanın ölümün nəfəsini daim öz üzərində hiss etməsindən təbii nə var ki? Tərlan müəllim də dəfələrlə ölümlə burun-buruna gəlib, ancaq ölümün qurduğu tələlərdən yayınıb: “Sentyabrın 30-da axşam olduğumuz mövqelərə 2 minamyot zərbəsi endirdilər. Həmin zərbələr məni də tutdu. Zərbənin təsirindən yıxıldım.Əlim kəsilmiş, dizimə daş girmişdi. Elə atırdılar ki, qaçmaq, gizlənmək qeyri-mümkün idi. Yoldaşlarım kömək eləyib məni qaldırdılar. Səhərisi isə, dostların şəhid olduğu döyüşdə başıma daş zərbəsi aldım. Partlayış nəticəsində qopan daş məni tutdu. Zərbədən sonra özümü itirdim. Ətrafda çoxlu səs-küy vardı, minamyotun vannası elə bil ağlımı başımdan aldı. Ancaq tez özümə gəldim. Dostlarımdan fərqli olaraq mənə heç nə olmadı. Komandir heyətinin, döyüşçü dostlarımın köməyilə özümü zərbələrdən qorumaq üçün nəzərdə tutulan “okopa” çatdırdım”.

Bu müharibənin qürurla anılacaq xatirələri daha çoxdur: “Sonrakı vaxtlarda sakit günlərimiz olurdu. Bəzən arxaya çəkilib mövqelənib yeni hücumlara hazırlaşırdıq. Elə həmin müddətdə də şəkillər çəkdirib o şərəfli günlərimizin xatirələrini əbədiləşdirmək, şəkillərə köçürmək imkanlarımız yaranırdı. İndi əlimdə olan şəkillər məhz həmin dövrdə çəkilənlərdi. Şəkillərə baxıram, heç birində şəhid dostlarımız, silahdaşlarımız yoxdur”.

Şəhid olan silahdaşlarını xatırladacaq şəkillər yoxdu, amma onlarla bağlı çox təsirli xatirələri var. Tərlan müəllim deyir, şəhid qardaşları onun xatirəsində ömür boyu yaşayacaq. Xatirələrində daim qürurla anacağı başqa hadisələrlə də yadda qalıb Vətən müharibəsi. O, ön cəbhəyə arxa cəbhədən verilən dəstəyin, böyük ruh yüksəkliyindən doğan qürurverən anlar barədə heç indi də sakit düşünə bilmir: “Xalqımızın birliyi Vətən müharibəsinin ən böyük dərsi oldu. Bu birlik əsgərlərimizə güc, qüvvət verirdi. Milli birliyin ruhlandırdığı qədər heç nə ruhlandırmırdı ordumuzu”.

O ruhla ordumuz qələbə dalınca qələbə qazandı: “Biz döyüşdük, işğal altında olan torpaqları geri aldıq. Dövlətimiz də o torpaqlarda həyatı canlandıracaq, inkişaf etdirəcək, ermənilər də görüb çatlasın. Azərbaycan gəlib torpaqlarına sahib çıxdı, qurub yaratdı deyə köks ötürsünlər. Xoşbəxt günlərimizi görüb qan ağlasınlar”.

### O müəllimin yetirmələri də qəhrəman olacaq

Tərlan müəllimin ömrünün müharibə səhifəsində nələr var, nələr. Barıt, qan qoxusu, top-minamyot səsi, partlayış gurultusu, dost sevgisi, qardaş dəstəyi, ailə özləmi. Qısa müddətdə bir-biri üçün öləcək qədər böyük dostluqlar da o səhifələrdədi, “heç nəyə baxmayaraq, yaşamağa dəyər” dedirtəcək qələbə eşqi, yaşamaq ümidi də. Hisslərin daim qarışdığı bu dözülməz mühitə insan ancaq bir səbəbdən dözə bilər: Vətən üçün. Ölüb-öldürmək yalnız vətənin bütövlüyü üçün adiləşir insanın gözlərində. “Müəllimlər vətənpərvər olurlar”, - deyən Tərlan müəllim müəllimlik etməyi də, Vətən üçün əlinə silah almağı da bacardığını göstərdi. Bundan sonra hansı kənddə, hansı şəhərdə sinfə girməyindən asılı olmayaraq, qəhrəman müəllimin yetişdirdiyi şagirdlərin hər biri bir şəxsiyyət, böyük vətənpərvər olacaq!

**Ruhiyyə DAŞSALAHLI**

# #YayMəktəbi

## Təhsil Nazirliyi həştəq kampaniyasına start verir




**Təhsil Nazirliyi iyunun 16-dan ümumi təhsil müəssisələrində "Yay məktəbi"nin təşkili ilə əlaqədar olaraq #YayMəktəbi həştəq paylaşımlarına start verir. Belə ki, şagird və müəllimlər qeyd edilən həştəqlə "Yay məktəbi" ilə bağlı fotoları sosial şəbəkələrdə paylaşa bilərlər.**

**Həştəq kampaniyası iyunun 30-dək davam edəcək.**

# BMU-da Milli Qurtuluş Günü qeyd olunub



Bakı Mühəndislik Universiteti (BMU) və Yeni Azərbaycan Partiyası BMU İlk Ərazi Təşkilatının birgə təşəbbüsü ilə 15 İyun - Milli Qurtuluş Gününə həsr olunan tədbir keçirilib.

BMU-nun rektoru, professor Havar Məmmədov bildirib ki, Azərbaycan müstəqilliyini 1991-ci ildə bərpa etsə də, hakimiyyətdə olan şəxslərin səriştəsizliyi nəticəsində yaranmış siyasi böhran, daxili və xarici pozucu qüvvələrin dövlətin əsaslarının sarsıdılmasına yönəlmiş məqsədyönlü fəaliyyəti ölkənin varlığını sual altına qoymuşdu. Tarixi faktlara toxunan rektor əlavə edib ki, digər tərəfdən Ermənistanın təcavüzü və torpaqların işğalı ölkədə vəziyyəti daha da gərginləşdirmişdi.

H.Məmmədov bildirib ki, məhz belə bir taleyüklü məqamda Azərbaycan xalqı öz gələcəyini görkəmli dövlət xadimi Heydər Əliyevə etibar etdi, xalqın təkidli tələbi ilə Bakıya qayıdan Ulu Öndər 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri, oktyabrın 3-də isə ölkə Prezidenti seçildi. Bundan sonra Ümummilli Liderin xilaskarlıq missiyası nəticəsində Azərbaycanın dövlət müstəqilliyini təhdid edən proseslərin qarşısı qətiyyətlə alındı, Ermənistanla atəşkəsə nail olundu, ölkədə ictimai-siyasi sabitlik bərqərar edildi, liberal iqtisadiyyatın formalaşdırılmasına başlanıldı, yeni neft strategiyası reallaşdırıldı. Ulu Öndərin Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası istiqamətində atdığı addımları nəzərə çatdıran rektor vurğulayıb ki, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli Heydər Əliyevin həyata keçirdiyi siyasətin prioritet istiqamətlərini təşkil edib.

Heydər Əliyev siyasətinin ötən 17 il ərzində Prezident İlham Əliyev tərəfindən bütün sferalarda yeni dövrün çağırışlarına uyğun davam etdirildiyini, hər sahədə böyük uğurlar qazanıldığını bildirən H.Məmmədov, ötən il Ulu Öndərin daha bir vəsiyyətinin həyata keçdiyini, əzəli torpağımız olan Qarabağın 44 günlük müharibə nəticəsində düşmən tapdağından azad edildiyini xüsusi vurğulayıb.

Millət vəkili, professor Anar İsgəndərov ulu öndər Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanda baş verən hadisələri və faktları xronoloji ardıcıllıqla qeyd edib. Ümummilli Liderin Azərbaycana rəhbərlik etdiyi dövrdə onun böyük xidmətlərindən və uğurlarından geniş bəhs edən millət vəkili bildirib ki, qısa müddət ərzində ölkəmizin aqrar ölkədən sənaye ölkəsinə çevrilməsində, Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin açılmasında, minlərlə Azərbaycan gəncinin SSRİ-nin ən nüfuzlu ali məktəblərinə göndərilməsində Heydər Əliyevin rolu danılmazdır.

Yeni Azərbaycan Partiyası (YAP) Abşeron rayon təşkilatının sədri Bilman Vəliyev ulu öndər Heydər Əliyevin zəngin fəaliyyətindən, eyni zamanda Azərbaycanın müstəqillik qazanması və inkişafı uğrunda gördüyü işlərdən danışıb.

# “Heydər Əliyev müasir Azərbaycanın qurucusudur”

Lənkəran Dövlət Universitetində (LDU) 15 İyun - Milli Qurtuluş Gününə həsr olunan “Heydər Əliyev müasir Azərbaycanın qurucusudur” mövzusunda konfrans keçirilib.

LDU-nun rektoru, professor Natiq İbrahimov qeyd edib ki, Azərbaycanın müasir tarixini Milli Qurtuluş Günündən və ümummilli lider Heydər Əliyevin möhtəşəm qayıdışından ayrı təsəvvür etmək mümkün deyil. Müasir Azərbaycanın hər bir uğurunun kökündə milli qurtuluşumuzdan başlanan müdrik Heydər Əliyev siyasəti dayanır.

“Ulu öndər Heydər Əliyevin 1993-cü ilin 15 iyununda möhtəşəm qayıdışı olmasaydı və milli qurtuluşumuz baş tutmasaydı, tamam fərqli bir Azərbaycanda yaşamağa məhkum olardıq”- deyən universitet rəsmisi bildirib ki, 1990-cı illərin əvvəlində Azərbaycan dərin siyasi, sosial-iqtisadi böhran keçirirdi, ölkədə xaos, anarxiya baş alıb gedirdi.

Azərbaycanın sürətli inkişaf dövrünün məhz Milli Qurtuluş Günü ilə başladığını vurğulayan professor N.İbrahimov həmin siyasətin bu gün Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirildiyini diqqətə çatdırıb.

Bildirib ki,15 iyun təkcə dövlətçiliyimizin xilası deyildi, həm də 44 günlük müharibədə ölkə Prezidenti, Ali Baş Komandanın rəhbərliyi ilə qazanılan möhtəşəm qələbənin təməli idi: “Təbii ki, bu gün qazanılan uğurların əsasında Ümummilli Liderin müəyyənləşdirdiyi və miras qoyduğu siyasi kurs, bu kursun Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsi faktoru dayanır”.

Konfransda tarix-coğrafiya və incəsənət fakültəsinin dekanı, dosent Kamal Mahmudov, Tarix və onun tədrisi metodikası kafedrasının müdiri, dosent Rakif İbadovun məruzələri dinlənilib.

Məruzələrdə 15 İyun- Milli Qurtuluş Gününü doğuran tarixi şəraitdən, Heydər Əliyevin Azərbaycanın bütövlüyünü qorumaq istiqamətində apardığı müdrik siyasətdən, bu siyasətin uğurlu nəticələrindən, Prezident İlham Əliyevin Heydər Əliyev yolunu uğurla davam etdirməsindən ətraflı bəhs olunub.

**İyunun 14-də Bakı Slavyan Universitetində (BSU) 15 İyun-Milli Qurtuluş Gününə həsr edilən “Əsrə bərabər gün” adlı tədbir və həmin tədbir çərçivəsində BSU-nun rektoru, professor Nurlana Əliyevanın xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi fəaliyyətinin 50 illiyinə həsr olunmuş “Qüdrətli Azərbaycan naminə” kitabının təqdimatı keçirilib. “Microsoft Teams” platforması vasitəsilə onlayn formada keçirilən tədbirdə BSU-nun rəhbərliyi, fakültə dekanları, dekan müavinləri, kafedra müdirləri, şöbə müdirləri, professor-müəllim heyəti nümayəndələri, fəal tələbə-gənclər iştirak ediblər. Tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.**

# “Qüdrətli Azərbaycan naminə”

## BSU-da kitab təqdimatı




Tədbirin moderatoru, BSU-nun tərbiyə işləri üzrə prorektoru, dosent Xanım Sultanova tədbir iştirakçılarını 15 İyun-Milli Qurtuluş Günü münasibətilə təbrik edib. Prorektor həmçinin BSU-nun rektoru, professor Nurlana Əliyevaya “Qüdrətli Azərbaycan naminə” adlı yeni kitabının işıq üzü görməsi münasibətilə təbrikini çatdıraraq, ona elmi-pedaqoji, ictimai-siyasi fəaliyyətində və yaradıcılığında




uğurlar arzulayıb. Qeyd edək ki, “Qüdrətli Azərbaycan naminə” kitabının redaktoru və ön sözün müəllifi Azərbaycanda Atatürk Mərkəzinin direktoru, Milli Məclisin deputatı, Əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü, professor Nizami Cəfərovdur.

BSU-nun rektoru, professor Nurlana Əliyeva tədbirdə çıxış edərək bildirib ki,15 İyun-Milli Qurtuluş Günü Azərbaycan xalqı üçün çox önəmli tarixi gündür. Azərbaycan xalqı hazırda mühüm tarixi dövrdə yaşayır. Xalqımız Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının (YAP) Sədri, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı möhtərəm cənab İlham Əliyevin müdrik rəhbərliyi, böyük siyasi iradəsi, sərkərdəlik məharəti və rəşadətli Azərbaycan Ordusunun qəhrəmanlığı nəticəsində tarixi ərazimiz olan Qarabağ uğrunda apardığı Vətən müharibəsində möhtəşəm Qələbə qazandı. Bu tarixi Qələbə nəticəsində xalqımızın 30 il davam edən Qarabağ həsrətinə son qoyuldu və Azərbaycanın ərazi bütövlüyü təmin edildi. Düşmən işğalından azad edilmiş Qarabağın bərpa edilməsi və yenidən qurulması, Azərbaycanın mədəniyyət paytaxtı elan edilmiş Şuşa şəhərində “Xarıbülbül” Beynəlxalq Musiqi Festivalının keçirilməsi hamımıza böyük sevinc, qürur hissi yaşadır və bu sevinc, qürur hissi bizi birləşdirir.Azərbaycan xalqı bu Böyük Qələbə sayəsində bütün dünyada qalib və mütərəqqi xalq kimi tanınır. Xalqımız bu Böyük Qələbəyə görə ulu öndər Heydər Əliyevə, Ümummilli Liderimizin layiqli və sadiq davamçısı, dövlət başçımız, YAP-ın Sədri, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə borcludur.

Rektor Nurlana Əliyeva qeyd edib ki, ulu öndər Heydər Əliyevin 1993-cü il iyun ayının 15-də yenidən Azərbaycanda siyasi hakimiyyətə qayıtmasından sonra ilk vaxtlar həyata keçirdiyi çoxşaxəli fəaliyyətində 3 mühüm iş diqqəti xüsusi cəlb edirdi. Bunlardan birincisi xalqımızın vətənpərvər, millətsevər övladlarının cəmləşdikləri YAP-ın iştirakı ilə ölkəmizin sülh, sabitlik, tərəqqi yoluna çıxarılması idi. İkinci mühüm iş isə təcavüzkar Ermənistanla atəşkəs rejimi haqqında razılığın əldə edilməsi idi ki, bu da öz növbəsində ölkəmizin sərhədlərinin qorunması və ölkə daxilində möhkəm ictimai-siyasi sabitliyin təmin edilməsi üçün olduqca vacib idi. Üçüncü mühüm iş isə dünyanın aparıcı neft şirkətləri ilə “Əsrin müqaviləsi”nin imzalanması oldu. Azərbaycanın yeni neft strategiyası əsasında imzalanmış “Əsrin müqaviləsi” ölkəmizin iqtisadi inkişafında müstəsna rol oynadı,Azərbaycana böyük iqtisadi və siyasi dividendlər gətirdi. Ümumilikdə ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətini qurdu, onu gücləndirdi və dünya birliyinin layiqli üzvünə çevirdi. Bugünkü hərtərəfli inkişaf edən müstəqil Azərbaycan Respublikası ulu öndər Heydər Əliyevin şah əsəridir.

Rektor Nurlana Əliyeva çıxışında bildirib ki, ulu öndər Heydər Əliyevin xalqımız, millətimiz, Vətənimiz, dövlətimiz qarşısında göstərdiyi ən böyük tarixi xidmətlər sırasında Ümummilli Liderimizin Azərbaycanı öz layiqli siyasi varisi cənab İlham Əliyevə həvalə etməsi xüsusi yer tutur. Məhz cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti, çoxşaxəli mütərəqqi fəaliyyəti nəticəsində Azərbaycanda genişmiqyaslı iqtisadi, siyasi, sosial, hərbi islahatlar həyata keçirildi, dövlət idarəçiliyi, siyasi sistem təkmilləşdirildi, ölkəmizin beynəlxalq aləmdə siyasi nüfuzu yüksəldi. Azərbaycanın iqtisadi və hərbi baxımdan güclü dövlətə çevrilməsi böyük tarixi Qələbəmizin əldə edilməsində mühüm rol oynadı.

Vurğulanıb ki, 1993-cü ilin 15 İyunu XX əsrdə Azərbaycan xalqının həyatına böyük tarixi-siyasi əhəmiyyət kəsb edən və bütöv əsrə bərabər bir gün kimi daxil olmuşdur. 28 il bundan öncə xalqımız öz dahi vətənpərvər oğlu, qüdrətli siyasi və dövlət xadimi, ümummilli liderimiz Heydər Əliyevin böyük zəkası, fədakarlığı, cəsarəti, iradəsi, qətiyyəti, uzaqgörənliyi, müdrikliyi, zəngin həyat və idarəçilik təcrübəsi nəticəsində ictimai-siyasi böhrandan, vətəndaş müharibəsi təhlükəsindən, separatçılıq cəhdlərindən xilas oldu. Məhz ulu öndər Heydər Əliyevin öz böyük tarixi xilaskarlıq missiyasını layiqincə yerinə yetirməsi sayəsində Azərbaycanın bir dövlət kimi varlığına son qoyulması və dünyanın siyasi xəritəsindən silinməsi təhlükəsi aradan qaldırıldı, xalqımız, millətimiz, Ana Vətənimiz məhv olmaqdan qurtuldu. Ulu öndər Heydər Əliyev tarix və xalq qarşısında öz missiyasını hünərlə, qətiyyətlə, xalqına, millətinə məhəbbətlə yerinə yetirdi. 15 İyun Azərbaycanın tarixinə ölkəni, xalqı, dövləti xilas edən böyük qayıdış kimi şərəflə yazıldı.

Professor Nurlana Əliyeva qeyd edib ki, möhtəşəm tarixi Qələbədən sonra dövlət başçımız cənab İlham Əliyevin qəbul etdiyi strateji qərarlar, reallaşdırdığı düşünülmüş, ardıcıl və sistemli tədbirlər Azərbaycanın Cənubi Qafqaz regionunda formalaşmış yeni siyasi mənzərədəki rolunu və mövqeyini gücləndirir. Dövlət başçımızın Qarabağa etdiyi müntəzəm səfərlər, tarixi torpaqlarımıza xüsusi qayğı və həssaslıqla yanaşması, Böyük Qayıdışı özündə ehtiva edən milli prioritetlər çərçivəsində genişmiqyaslı bərpa, abadlaşdırma və quruculuq işlərinə başlanılması Qarabağın əsl sahibinin məhz Azərbaycan olduğunu bir daha dünya ictimaiyyətinə çatdırır, həm də xalqımızda Qarabağda əbədi yaşayacağına tam əminlik yaradır. Hamımız inanırıq ki, doğma Qarabağımız yaxın gələcəkdə dünyanın ən gözəl məkanlarından birinə çevriləcək. Azərbaycan hazırda ulu öndər Heydər Əliyevin möhtəşəm ideyaları əsasında, dövlət başçımız cənab İlham Əliyevin rəhbərliyi və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, YAP Sədrinin Birinci müavini Mehriban xanım Əliyevanın misilsiz xidmətləri sayəsində davamlı inkişaf edir.

Tədbirdə iştirak edən Milli Məclisin deputatı, “Trend” Beynəlxalq İnformasiya Agentliyi Baş direktorunun korporativ inkişaf üzrə müavini Arzu Nağıyev, BSU-nun tədris işləri üzrə prorektoru, professor Telman Cəfərov və digər çıxış edənlər “Qüdrətli Azərbaycan naminə” kitabını məzmun və ideya baxımından yüksək səviyyəyə malik və müasir dövrümüz üçün dəyərli bir kitab kimi səciyyələndirib.

*Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 17 iyun tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Təhsil Tələbə Krediti Fondunun NİZAMNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Təhsil Tələbə Krediti Fondu (bundan sonra - Fond) təhsil tələbə kreditlərinin verilməsini təşkil edən qeyri-kommersiya hüquqi şəxsidir.

1.2. Fond Azərbaycan Respublikası Təhsil Nazirliyinin (bundan sonra - Nazirlik) tabeliyində fəaliyyət göstərir.

1.3. Fond öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları rəhbər tutur.

1.4. Fond öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən, dövlət və yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.5. Fond ictimai faydalı məqsədlərə xidmət edən fəaliyyətlə məşğul olur. Fond bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.6. Fondun ayrıca əmlakı vardır və Fond öz öhdəliklərinə görə bu əmlakla cavabdehdir. Fondun müstəqil balansı, bank hesabları, üzərində öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.7. Fondun əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Fond məhkəmədə iddiaçı və ya cavabdeh, habelə üçüncü şəxs qismində çıxış edir.

1.8. Dövlət Fondun öhdəlikləri üçün cavabdeh deyildir və Fondun fəaliyyəti ilə bağlı zərərə görə nizamnamə kapitalındakı payı həddində risk daşıyır. Fond dövlətin öz üzərinə götürdüyü hər hansı öhdəliyə görə cavabdeh deyildir.

1.9. Fond Bakı şəhərində yerləşir.

## 2. Fondun fəaliyyətinin məqsədi, vəzifələri və hüquqları

2.1. Fondun fəaliyyətinin əsas məqsədi təhsil tələbə krediti sistemini tətbiq etməklə təhsilə əlçatanlığı təmin etməkdən, təhsil almaqda bərabər imkanlar yaratmaqdan və təhsilin əhatə dairəsini genişləndirməkdən ibarətdir. Fond əhaliyə birbaşa təhsil tələbə kreditlərinin verilməsi ilə məşğul olmur.

2.2. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət məqsədinə uyğun olaraq Fondun vəzifələri aşağıdakılardır:

2.2.1. təhsil tələbə kreditlərinin verilməsini təşkil etmək;

2.2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydaya uyğun olaraq təhsil tələbə krediti üçün müraciət etmiş tələbələrə kredit ayrılması barədə qərar qəbul etmək;

2.2.3. təhsil tələbə kreditinin maliyyələşdirilməsi məqsədilə müvəkkil bankla müqavilə bağlamaq və tələb olunan vəsaiti müqavilədə nəzərdə tutulmuş müddətdə müvəkkil banka köçürmək;

2.2.4. "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndə "Təhsil Tələbə Krediti" altsisteminin fəaliyyətini təmin etmək;

2.2.5. təhsil tələbə kreditləşməsi sahəsində likvidliyin təmin olunması, Fondun fəaliyyətinin inkişaf etdirilməsi, səmərəliliyinin və etibarlılığının yüksəldilməsi məqsədilə investisiyaların cəlb olunması üçün tədbirlər görmək;

2.2.6. Fondun fəaliyyətində riskləri azaltmaq məqsədilə risklərin idarə edilməsi sistemini formalaşdırmaq və tətbiqini təmin etmək;

2.2.7. mülkiyyətindəki (balansındakı) əmlakdan səmərəli istifadə olunmasını təmin etmək;

2.2.8. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla fəaliyyətində elmi-texniki nailiyyətləri tətbiq etmək;

2.2.9. Fonda ayrılan büdcə vəsaitindən, kreditlərdən, qrantlardan və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

2.2.10. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

2.2.11. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və həmin informasiyanın daim yenilənməsini təmin etmək;

2.2.12. Fondda kadr hazırlığını təmin etmək, həmçinin mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;

2.2.13. strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

2.2.14. fəaliyyətinin məqsədinə aid məsələlərlə bağlı islahatlar aparılmasına dair təkliflər hazırlayıb aidiyyəti üzrə təqdim etmək;

2.2.15. malların (işlərin və xidmətlərin) satın alınması üçün "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görmək;

2.2.16. fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş tədbirlər görmək;

2.2.17. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

2.3. Fondun aşağıdakı hüquqları vardır:

2.3.1. fəaliyyətinin məqsədinə aid məsələlərlə bağlı normativ hüquqi aktların layihələrinin hazırlanmasına dair təkliflər vermək;

2.3.2. müqavilə əsasında ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

2.3.3. beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla və xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları), hüquqi və fiziki şəxslər ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

2.3.4. fəaliyyətinin məqsədinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

2.3.5. dövlət orqanlarına və qurumlarına, yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

2.3.6. fəaliyyətinin məqsədinə aid məsələlərlə bağlı analitik materiallar hazırlamaq, tədqiqatlar aparmaq və təkliflər vermək;

2.3.7. fəaliyyət məqsədinə uyğun olaraq konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

2.3.8. bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## 3. Fondun idarə olunması

3.1. Fond öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

3.2. Fondun idarəetmə orqanları Himayəçilik Şurası və İdarə Heyətidir.

3.3. Fondun fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti Himayəçilik Şurası (bundan sonra - Şura) həyata keçirir.

3.4. Şuranın Azərbaycan Respublikası Təhsil Nazirliyinin (2 nəfər), Azərbaycan Respublikası Maliyyə Nazirliyinin (1 nəfər), Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (1 nəfər), Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin (1 nəfər), Azərbaycan Respublikası Mərkəzi Bankının (1 nəfər) və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin (1 nəfər tələbə) nümayəndələrindən ibarət 7 (yeddi) üzvü vardır.

3.5. Şuranın üzvləri 3 (üç) il müddətinə təyin edilir və ictimai əsaslarla fəaliyyət göstərirlər. Şuranın üzvləri növbəti müddətə yenidən təyin edilə bilərlər.

3.6. Şuranın üzvlərini təmsil etdikləri orqanın (qurumun) rəhbəri təyin və azad edir.

3.7. Şuranın sədrini Nazirliyin Şurada təmsil edilən üzvləri arasından Azərbaycan Respublikasının təhsil naziri təyin edir.

3.8. Şuranın üzvləri Fondun digər orqanlarında təmsil oluna bilməzlər.

3.9. Bu Nizamnamə ilə Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Respublikası təhsil nazirinin səlahiyyətlərinə aid edilmiş məsələlər istisna olmaqla, Fondun fəaliyyəti ilə bağlı məsələlərə dair Şura qərar qəbul etməkdə müstəqildir.

3.10. Şura aşağıdakı vəzifələri yerinə yetirir:

3.10.1. Fondun strateji məqsəd və planlarını, inkişaf istiqamətlərini müəyyən edir;

3.10.2. Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla, standart və sosial təhsil tələbə krediti üzrə illik faiz dərəcələrini, habelə hər tədris ili üçün təsdiq edilən tələbə qəbulunda nəzərdə tutulmuş ayrı-ayrı ixtisaslar üzrə ödənişli əsaslarla təhsilalana düşən illik təhsil haqlarının məbləği nəzərə alınmaqla, təhsil tələbə kreditinin məbləğinin yuxarı həddini təsdiq edir;

3.10.3. birinci tədris ilinin ilk semestri (yarımili) üçün tələbələrin standart təhsil tələbə krediti almaq hüququnu müəyyən edən tələbə qəbulu imtahanında toplanan ümumi balın minimal həddini təsdiq edir;

3.10.4. təhsil tələbə kreditinin maliyyələşdirilməsi ilə bağlı müvəkkil bank tərəfindən Fonda təqdim edilməli sənədlərin siyahısını müəyyən edir;

3.10.5. Fondun strukturunun, işçilərinin say həddinin və əməkhaqlarının müəyyən edilməsi ilə bağlı təkliflərini Nazirliyə təqdim edir;

3.10.6. Fondun kənar auditorunu təyin edir;

3.10.7. daxili və kənar auditor yoxlamalarının nəticələrinə baxır və bu yoxlamaların yekunları ilə əlaqədar tədbirlər görür;

3.10.8. aidiyyəti şəxslə əqd bağlanması haqqında qərar qəbul edir;

3.10.9. Fondun büdcəsi və xərclər smetası barədə təkliflərini Nazirliyə təqdim edir;

3.10.10. Fondun cari fəaliyyəti ilə bağlı bu Nizamnamə ilə İdarə Heyətinin səlahiyyətlərinə aid edilmiş məsələlərin icra vəziyyəti barədə rüblük hesabatı dinləyir;

3.10.11. Fondun kənar auditor rəyi ilə birlikdə illik hesabatını, habelə maliyyə hesabatlarını təsdiq edir;

3.10.12. Fondun vəsaitinin təyinatı üzrə xərclənməsinə nəzarəti həyata keçirir;

3.10.13. fəaliyyət məqsədinə uyğun olaraq dəstəklənməsi prioritet hesab edilən sahələr barədə təkliflərini Nazirliyə təqdim edir;

3.10.14. Şuranın və İdarə Heyətinin üzvlərinin müraciətlərinə baxır və qərar qəbul edir;

3.10.15. Fondun fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı Nazirliyə təkliflər verir;

3.10.16. Fondun cari fəaliyyəti ilə bağlı bu Nizamnamə ilə müəyyən edilmiş digər məsələləri həll edir.

3.11. Şuranın iclaslarını üç ayda bir dəfədən az olmayaraq Şuranın sədri çağırır və iclaslara sədrlik edir. Şuranın iclaslarının çağırılması təşəbbüsü ilə Şuranın üzvləri və İdarə Heyətinin üzvləri çıxış edir.

3.12. Şuranın dəvəti ilə onun iclaslarında Fondun digər vəzifəli şəxsləri də iştirak edə bilərlər.

3.13. Şuranın iclasları Şura üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Şuranın sədri, o olmadıqda isə Şura sədrinin müəyyən etdiyi Şuranın digər üzvü iclasa sədrlik edir. Şuranın iclasında hər üzvün bir səsi olmaqla, qərarlar açıq səsvermə yolu ilə sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda, sədrin səsi həlledicidir. Şuranın iclaslarının nəticəsi Şura üzvlərinin imzaladıqları protokolda əks olunmaqla rəsmiləşdirilir.

3.14. Şura bu Nizamnamə ilə onun müstəsna səlahiyyətlərinə aid edilmiş məsələlərin həllini İdarə Heyətinə həvalə edə bilməz.

3.15. Şuranın sədri:

3.15.1. Şuranın işini təşkil edir və onun fəaliyyətinə rəhbərlik edir;

3.15.2. Şuranın iclaslarının gündəliyini müəyyənləşdirir, iclaslar çağırır və iclaslara sədrlik edir;

3.15.3. öz təşəbbüsü ilə, habelə Şuranın hər hansı digər üzvünün və ya İdarə Heyəti sədrinin xahişi əsasında digər şəxsləri Şuranın iclasında iştirak etməyə dəvət edir;

3.15.4. Şuranın fəaliyyətinin təşkili ilə bağlı digər tədbirlər görür.

3.16. Şuranın üzvləri:

3.16.1. Şuranın səlahiyyətlərinə aid məsələlərin həllində iştirak edirlər;

3.16.2. Şuranın iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

3.16.3. Şurada qəbul ediləcək qərarlara dair fikir bildirirlər;

3.16.4. Şuranın səlahiyyətlərinə aid məsələlərə Şuranın iclaslarında baxılması barədə təkliflər verirlər;

3.16.5. Şuranın qərarları, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

3.17. Şuranın üzvləri Şuranın iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, Şuranın üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

3.18. Fondun fəaliyyətinə cari rəhbərliyi İdarə Heyəti həyata keçirir.

3.19. İdarə Heyəti 3 üzvdən - Azərbaycan Respublikasının təhsil naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İdarə Heyətinin sədrindən və onun iki müavinindən ibarətdir.

3.20. Şuranın üzvləri İdarə Heyətinə təyin edilə bilməzlər.

3.21. İdarə Heyəti aşağıdakı vəzifələri yerinə yetirir:

3.21.1. Fondun cari fəaliyyətini təşkil edir;

3.21.2. Fondun illik fəaliyyət planını Şura ilə razılaşdırmaqla təsdiq edir;

3.21.3. təsisçinin səlahiyyətlərini həyata keçirmək üçün Şuraya və Nazirliyə təkliflər verir və sənədlər təqdim edir;

3.21.4. təhsil tələbə krediti üzrə kreditin məbləğinin və kredit faizlərinin müəyyən edilməsi üçün Şuraya təkliflər verir;

3.21.5. Fondun büdcəsini və xərclər smetasını, habelə fəaliyyətinə dair illik hesabatı, maliyyə hesabatını hazırlayır və təsdiq üçün Şuraya təqdim edir;

3.21.6. bu Nizamnamə ilə müəyyən edilmiş vəzifələri həyata keçirmək üçün Şuraya digər təkliflər verir və sənədlər təqdim edir;

3.21.7. Fondun işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməkhaqqı fondu çərçivəsində təşkil edir;

3.21.8. Fondun maliyyə-təsərrüfat fəaliyyətinin daxili auditinin keçirilməsi ilə bağlı qərar qəbul edir;

3.21.9. Fondun fəaliyyətinin təkmilləşdirilməsi və inkişafı ilə bağlı Şuraya təkliflər verir;

3.21.10. Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Şuranın və İdarə Heyəti sədrinin səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar verir.

3.22. İdarə Heyətinin iclasları ayda bir dəfədən az olmamaqla keçirilir və İdarə Heyəti üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin iclasında qərarlar açıq səsvermə yolu ilə sadə səs çoxluğu ilə qəbul olunur. Səslərin sayı bərabər olduqda, İdarə Heyəti sədrinin (və ya onu əvəz edən sədr müavininin) səsi həlledicidir. İdarə Heyətinin iclaslarının nəticəsi bu Nizamnamənin 3.13-cü bəndində nəzərdə tutulmuş qaydada protokollaşdırılır.

3.23. İdarə Heyətinin sədri aşağıdakı vəzifələri yerinə yetirir:

3.23.1. Fondun cari fəaliyyətinə rəhbərlik edir və onu təmsil edir;

3.23.2. İdarə Heyətinin digər üzvləri, habelə Fondun digər vəzifəli şəxsləri arasında səlahiyyət bölgüsü aparır və onların fəaliyyətini əlaqələndirir;

3.23.3. İdarə Heyətinin fəaliyyətini təşkil edir və iclaslarına sədrlik edir;

3.23.4. Fondun səmərəli fəaliyyət göstərməsini təmin edir;

3.23.5. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Fondun ştat cədvəlini təsdiq edir;

3.23.6. öz təşəbbüsü ilə, İdarə Heyətinin digər üzvünün və ya Şuranın təşəbbüsü ilə İdarə Heyətinin iclaslarını çağırır;

3.23.7. bu Nizamnamədə Azərbaycan Respublikası təhsil nazirinin səlahiyyətlərinə aid edilmiş hallar istisna olmaqla, Fondun digər işçilərini vəzifəyə təyin və vəzifədən azad edir, qanunda nəzərdə tutulmuş qaydada həvəsləndirmə və intizam tənbehi tədbirləri tətbiq edir;

3.23.8. Fondun işçilərinin sosial müdafiəsinin və əmək şəraitinin yaxşılaşdırılması, əməyinin mühafizəsi ilə bağlı tədbirlər görür;

3.23.9. Fondun fəaliyyətinin məqsədinə aid məsələlərlə bağlı qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

3.23.10. Fondun fəaliyyətinin təşkili ilə bağlı icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

3.23.11. fəaliyyətinin məqsədinə uyğun olaraq dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün tədbirlər görür;

3.23.12. Fondun fəaliyyətinin kənar auditinin keçirilməsi ilə bağlı Şuranın qərarının icrasını təmin edir;

3.23.13. Fondun adından əməliyyatlar aparır, müqavilələr (o cümlədən xarici şirkətlərlə) bağlayır və onların yerinə yetirilməsini təmin edir;

3.23.14. fəaliyyətinin məqsədinə uyğun olaraq komissiyalar, komitələr və işçi qruplar yaradır;

3.23.15. Fondun vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

3.23.16. işçilərin peşəkarlıq səviyyəsinin artırılmasını təmin edir;

3.23.17. Fondda kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

3.23.18. Fondda vətəndaşların qəbulunu və müraciətlərinə baxılmasını təmin edir.

3.24. Fondun İdarə Heyətinin sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərinin icrasını, İdarə Heyəti sədrinin təsdiq etdiyi vəzifə bölgüsünə əsasən onun müavinlərindən biri həyata keçirir.

3.25. İdarə Heyətinin üzvləri:

3.25.1. İdarə Heyətinin səlahiyyətlərinə aid olan məsələlərin həllində iştirak edirlər;

3.25.2. İdarə Heyətinin iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

3.25.3. İdarə Heyətinin qəbul ediləcək qərarlarına dair fikir bildirirlər;

3.25.4. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərə İdarə Heyətinin iclaslarında baxılması barədə təkliflər verirlər;

3.25.5. İdarə Heyətinin qərarları ilə, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

3.26. İdarə Heyətinin üzvləri İdarə Heyətinin iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, İdarə Heyəti üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

## 4. Fondun nizamnamə kapitalı, əmlakı və maliyyə fəaliyyətinin əsasları

4.1. Fondun nizamnamə kapitalının məbləği 80,0 (səksən) milyon manatdır.

4.2. Fondun əmlakı nizamnamə kapitalından, təsisçinin verdiyi əmlakdan, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

4.3. Fond öz əmlakından yalnız bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Fond balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

4.4. Fond qanunda nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra Fondun fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

4.5. Fond sərbəst pul vəsaitindən yalnız aşağıdakı istiqamətlər üzrə istifadə edir:

4.5.1. Fondun saxlanılması xərclərinin maliyyələşdirilməsi;

4.5.2. təhsil tələbə kreditlərinin maliyyələşdirilməsi;

4.5.3. dövlət qiymətli kağızlarının əldə olunması;

4.5.4. beynəlxalq reytinq agentlikləri tərəfindən ölkə üzrə verilmiş reytinqdən maksimum iki pillə aşağı olan banklarda depozitlərin yerləşdirilməsi.

4.6. Fond ləğv edildikdə onun borclarının ödənilməsindən sonra qalan əmlakı Fondun nizamnaməsində göstərilən məqsədlərə, bu mümkün olmadıqda isə dövlət büdcəsinə yönəldilir.

## 5. Fondun fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi

5.1. Fondun fəaliyyətinə nəzarəti Nazirlik, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada Fondun Himayəçilik Şurası və İdarə Heyəti həyata keçirirlər.

5.2. Fondun fəaliyyətinin kənar auditi Şuranın, daxili auditi isə İdarə Heyətinin qərarı ilə həyata keçirilir.

5.3. Eyni kənar auditorla ardıcıl 3 (üç) ildən artıq müddətə müqavilə bağlamaq olmaz.

## 6. Uçot və hesabat

6.1. Fond "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq mühasibat uçotunu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

6.2. Fond "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik uçot aparır, statistik hesabatları tərtib və təqdim edir.

6.3. Fond öz əmlakından istifadə haqqında hesabatları hər il dərc edir.

6.4. Fondun fəaliyyətinə dair illik hesabat Nazirliyə təqdim edilir.

## 7. Fondun yenidən təşkili və ya ləğv edilməsi

Fondun ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.



**Məlum olduğu kimi, iyunun əvvəllərində Azərbaycanın ali təhsil müəssisələrində təhsil alan əcnəbi tələbələrin bir qrupunun işğaldan azad edilmiş Cəbrayıl və Füzuli rayonlarına səfəri təşkil olunub. Səfərdə 31 ölkədən olan 40 tələbə 16 təhsil müəssisəsini təmsil edib. Tələbələr işğaldan azad edilmiş ərazilərdə ermənilərin yaşayış məntəqələri və tarixi abidələri viran qoymasının, dağıtmasının canlı şahidi olublar. Əcnəbi tələbələr erməni vəhşiliyinin ölçüyəgəlməz nəticələri ilə yerindəcə tanış olaraq öz fikir və təəssüratlarını bölüşüblər.**

# Erməni vəhşiliyinin izi ilə

## Əcnəbi tələbələr: 44 günlük müharibə zamanı Azərbaycanın yanında olduq



Muqader Vazeri



Abrehet Mehari Gebreselassie



Valeria Vasileva



Espinoza Lamar Andres Fernando



Manaal Xalid

### “Ermənistanın insanlıq adına bir ləkə olduğuna mən bir daha əmin oldum”

*Muqader Vazeri, UNEC-in tələbəsi (Əfqanıstan):* - Təhsil Nazirliyi bizi iyunun 2-də işğaldan azad olunmuş torpaqlara apardı. Səfərdən öncə çox həyəcanlı idim. Orta məktəbdə və universitetdə oxuyarkən Qarabağ müharibəsi və tarixi haqqında biliklərim var idi. Universitetdə dostlarımdan da məlumatlar almışdım. Buranın çox gözəl, mənzərəli torpaqlar olduğunu bilirdim. Amma oraya gedəndə şok keçirdim. Dağıdılmış, yandırılmış kəndləri, kəsilmiş meşələri gördüm. Bütün torpaqlara minalar yerləşdirildiyini, çox sayda mülki əhalinin və mətbuat işçilərinin minalara düşdüyünü və həlak olduğunu bilirəm. Bu səfərdə erməni vəhşiliyi və vandalizmini müşahidə etdim. Ermənistanın insanlıq adına bir ləkə olduğuna mən bir daha əmin oldum. Ermənilər bu torpaqlarda tarixi abidələri dağıdıblar. Mən səfərdə həm sevinc, həm də dərin kədər hissləri keçirdim. Sevindim ki, bu torpaqlar azad olunub. Kədərləndim ki, bu cür gözəl torpaqları niyə bu cür vəhşiliklə məhv ediblər. Evləri, məktəbləri belə yandıran ermənilərin hərəkətlərinin məntiqini anlaya bilmədim. Amma ümid edirəm və inanıram ki, bu torpaqlar yenə də gözəl olacaq. Biz yenə də öz ailəmiz və dostlarımızla birlikdə gəlib bu torpaqları ziyarət edəcəyik. İnanıram ki, gələcəkdə bu yerlərə gələndə yenidən qurulmuş və yenilənmiş Qarabağı görəcəyəm.

### “Erməni vəhşiliyini görəndə çox kədərləndim və ağladım”

*Abrehet Mehari Gebreselassie, UNEC-in doktorantı (Efiopiya):* - Mən ilk növbədə Təhsil Nazirliyinə və UNEC-ə mənə belə bir tarixi yerə baş çəkmək imkanı verdiklərinə görə təşəkkür edirəm. Digər əcnəbi tələbələr kimi, Azərbaycan Ordusunun qətiyyətli səyləri ilə erməni işğalından azad olunmuş tarixi Qarabağı görmək mənim üçün çox maraqlı idi. Hadruta gəldik və yolboyu avtobusun pəncərəsindən gözlərimi dağıdılmış ərazilərdən çəkə bilmirdim. Heç kim bu dağıntıların, vəhşiliklərin insanlar tərəfindən edildiyinə inanmırdı. Torpaqda heç nə qalmamışdı, bütün evlər yandırılmış, külə və səhraya çevrilmişdi. O dövrdə iki hiss keçirdim. Erməni vəhşiliyini görəndə çox kədərləndim və ağladım. Gördüklərim ürəkağrıdıcı idi. Mən öz şüurumda günahsız insanların şəklini canlandırdım (evdə olan qadın və kişiləri, məktəbdəki şagirdi, çöldəki, yaxud həyətdəki heyvanları). Mən özümdən soruşdum, öz yurdundan qaçmağa məcbur olan bu insanlar evlərini tərk edərkən nə dedilər, nə etdilər, necə qaçdılar, nə götürdülər, necə və hara getdilər, ailə ilə, yaxud təklikdə? Bütün bu suallar ağlıma gəlir. Yenə də özümə soruşdum, niyə? İnsan bu cür pisliyi necə edə bilər? Başqa bir hissi isə, mən Xudafərin körpüsünü gördükdə yaşadım. Öz ölkəsinin ərazi bütövlüyünün bərpası yolunda bu tarixi qələbədə canlarından keçən bütün şəhidlərin xatirəsinə dərin ehtiramımı bildirirəm.

Qarabağ təbiətin bəxş etdiyi çözəl diyardır. Əminəm ki, Qarabağda aparılacaq yenidənqurma -bərpa işləri üçün əvvəlkindən də yaxşı imkanlar var. Aparılacaq işlər əhalinin yerləşdirilməsi, gələcək nəsil üçün parlaq və əlverişli şərait yarada bilər.

### “Dağıdılmış və məhv edilmiş əraziləri gördükdə çox kövrəldim”

*Valeria Vasileva, ADA Universitetinin tələbəsi (Bolqarıstan):* - Bu səfər əslində xəyalımın gerçəkləşməsi oldu. İlk ziyarət edən azsaylı insanlardan olmaq fürsəti qazandığım üçün çox şadam. Buraya gəlməzdən əvvəl Qarabağın gözəlliyi haqda çox məlumatlar eşidirdim. Buranı öz gözlərimlə görmək heyrətamizdir. Anaq Bolqarıstanda olduğum üçün əvvəlcə müharibə şəraitini görməmişdim. Burada isə dağıdılmış və məhv edilmiş əraziləri gördükdə çox kövrəldim, çünki müharibə vaxtı Azərbaycanda olmuşdum və baş verənlərin birbaşa şahidi olmuşdum.

### “Azərbaycanı təbrik etmək istəyirəm”

*Espinoza Lamar Andres Fernando, ADNSU tələbəsi (Ekvador):* - Xudafərin körpüsü kimi möhtəşəm gözəl bir yeri işğaldan azad etdiyi üçün Azərbaycanı təbrik etmək istəyirəm. Əvvəllər bu körpünün əhəmiyyətini bilmirdim. Burada onun tarixini, önəmini öyrəndim. Buranı gördüyüm üçün çox şadam. Əlbəttə, bir gün yenidən bura qayıtmaq istərdim.

### “Azərbaycanın yanında olduğumuz üçün qürur duyuram”

*Manaal Xalid, ADA Universitetinin tələbəsi (Maldivi adaları):* - Qarabağa gələn ilk insanlardan olmaq mənim üçün həyəcanlıdır. 44 günlük müharibə zamanı Azərbaycanda oldum və bu tarixi ana şahidlik çox qürurverici idi. Bu gün gözəl yerlərlə yanaşı dağıdılmış kəndləri, müharibənin qalıqlarını gördük. Maldiv adaları kimi bir ölkədən gəldiyim üçün müharibədən çox uzaqda yaşamışam. Və orada bu cür şeylər görməmişəm. Amma Azərbaycana, xüsusən Qarabağa gəlib müharibənin nə olduğunu başa düşdüm. Müharibə vaxtı Azərbaycanın yanında olduğumuz üçün qürur duyuram.

**Oruc MUSTAFAYEV**

# Salnaməyə dönən illər




**Tarix təkrarlanmır. Lakin illərin sırasında bir şəcərəyə dönərək özünəməxsus bir mənzərə yaradır. Bu mənzərələrin fonunda salnamələr formalaşır. İnsanlar bu salnamələrdə özlərinin sevdikləri, rəğbət bəslədikləri dövrü, hadisələri ümumiləşdirərək tarixə çevirirlər. Əslində salnamələrdə əks olunanlar həm də tarixin yaddaşına hoparaq əsrlər boyu insanların ömürdaşı kimi onları izləyir. AMEA-nın müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor Misir Mərdanovun bu günlərdə nəşr olunmuş "Bakı Dövlət Universiteti" ( Bakı, "Təhsil", 2021) kitabı da bu qəbildən olan salnamədir. Pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi Fərrux Rüstəmovun elmi redaktorluğu ilə çap olunan bu kitab Bakı Dövlət Universitetinin çətin, mürəkkəb, həm də şərəfli inkişaf yoluna həsr olunmuşdur. Keçilmiş və tarixə çevrilmiş bu bir əsrlik yaradıcılıq yolu tarixi məxəzlərə əsaslanaraq öyrənilib ümumiləşdirilmiş, inkişaf mərhələləri müəyyənləşdirilmiş, sistemli olaraq oxuculara təqdim edilmişdir. Salnamələr həmişə digər yaradıcılıq nümunələri ilə müqayisədə müəlliflərinə mənən daha yaxın olmaqla çox hallarda onların istək və arzularının ifadəçisi kimi çıxış edir. Bu kitabı da vərəqləyərkən ilk səhifələrdə verilmiş "Mənim universitetim" başlıqlı hissədə müəllifin təəssüratları, fikirləri, belə demək mümkünsə, konsepsiyası ilə rastlaşırsan. Çox səmimi və mehriban təhkiyələrdə onun Azərbaycan Dövlət Universitetinə nə qədər bağlı olduğunun şahidi olursan.**

## Bu kitab necə yarandı?

Bu ritorik sualın arxasında səmimi bir etiraf, həm də mükəmməl bir məntiq dayanır. Müəllif, ilk növbədə, təhsil aldığı və qəlbən bağlandığı ADU barədə xatirələrini düşüncələrində təhlil edir. Ötən əsrin 70-ci illərindən başlayaraq 1994-cü ildə M.Ələsgərov, F.Vahidovla birlikdə "Bakı Dövlət Universiteti" (1919-1994) kitabını hazırlayıb çap etdirir. Bundan əlavə, "Azərbaycan təhsili Xalq Cümhuriyyəti illərində" (1918-1920), "Azərbaycan təhsil nazirləri" kitablarında, eləcə də "Azərbaycan təhsil tarixi" çoxcildliyinin I-III və IV cildlərində BDU-nun təşəkkül və inkişafı, fəaliyyətinin ayrı-ayrı istiqamətləri barədə fikirlər söyləyir. Universitetin 100 illiyi ərəfəsində bu münasibətlə 10-a qədər məqalə hazırlayaraq mətbuatda çıxışlar edir. Sonra o, bu mövzuya yenidən qayıdaraq arxiv materiallarını, kitabları, jurnal və qəzetləri araşdıraraq əlaqədar materialları toplayıb və təhlillər aparır. Hətta universitetin fəaliyyətinin təhlilinə dəstək ola bilən yeni materiallar tapır. Bir sıra tarixi şəxsiyyətlərin həyat və fəaliyyəti ilə bağlı dəqiqləşmələr aparır. Və belə qənaətə gəlir: "Bu kitabı ərsəyə gətirərkən bir daha əmin oldum ki, sələflərimizin və müasirlərimizin elmi-pedaqoji fədakarlığı nəticəsində 100 il müddətində BDU-da, həqiqətən də, möhtəşəm və şərəfli bir tarix yaradılıb. Bu zəngin elmi və pedaqoji irsin yaradılmasında müstəsna xidmətləri olan müqtədir alimlər və təcrübəli müəllimlər çoxdur".

Bu müqtədir və təcrübəli alimlər haqqında, ümumiyyətlə, bu günə qədər möhtəşəm bir tarix yaratmış universitet haqqında necə yazmaq, fikirləri hansı məntiqə tabe etmək müəllifi düşündürür. Oxucunun marağına səbəb olmaq üçün tarixi xronologiyanı gözləməklə düşüncələrini publisistik üslubda ifadə etməyə çalışır. Xüsusilə başlıqlarda və yarımbaşlıqlarda obrazlı ifadələrə üstün yer ayırır. Məsələn, I fəsil "Ürfan çırağı" (1919-1920), II fəsil "İkinci nəfəs" (1920-1930), III fəsil "Qayıdış, yaxud şimal küləkləri sərtləşir" (1934-1941), IV fəsil "Döyüşən təhsil və elm" (1941-1945), V fəsil "Dirçəliş" (1945-1959), VI fəsil "50 yaşın astanasında" (1959-1969) və s.

## Bakıda universitetin açılması

Məlum olduğu kimi, Bakıda universitetin açılması milli maarifçilərin çoxdankı arzusu idi. Lakin buna nail olmaq mümkün deyildi. Çünki XIX əsrin 30-cu illərindən başlayaraq Azərbaycan ərazisində fəaliyyət göstərən məktəblər ali təhsil müəssisələrinin açılmasını şərtləndirsə də, çar hökuməti bütün hallarda buna mane olurdu. Nəinki ali təhsil müəssisəsinin, hətta ibtidai məktəblər üçün müəllim kadrları hazırlayan seminariyanın açılmasına belə icazə vermirdilər. Doğrudur, Azərbaycan maarifçi ziyalılarının səyi nəticəsində 1879-cu ildə Qori Müəllimlər Seminariyasının tatar (Azərbaycan) şöbəsi fəaliyyətə başlamışdı. Lakin onu 1918-ci ilə qədər Azərbaycana köçürmək mümkün olmamışdı. Məhz kitabın "Ürfan çırağı "(1918-1920) adlı birinci fəsli bu məsələlərə həsr edilir, ciddi tarixi araşdırmalar əsasında hələ o dövrdə (1919-cu ildə) Zaqafqaziya Universitetinin Bakıya köçürülməsindən və Bakı Darülfününun təşkilinin müzakirəsindən danışılır. Çox böyük çətinliklərdən sonra Bakı Dövlət Darülfünun açılması ilə bağlı sənəd Azərbaycan parlamentində təsdiq olunur.

Əslində bunlar Azərbaycanda ilk universitetin yaradılması uğrunda aparılan mübarizələr idi və o dövrün maarifçi ziyalılarının vətənpərvərlik hissi ilə gördükləri işlərin əks-sədası kimi təsir bağışlayırdı. Birinci fəsildə də bu məsələlərin təhlilinə yer ayrılmaqla onun analitik mənzərəsi canlandırılmışdır. Bundan əlavə, V.İ.Razumovskinin "Universitetin və maarifin həqiqi dostları" adlandırdığı M.Rəsulzadə, H.Ağayev F.Xoyski, R.Kaplanov, N.Yusifzadə, S.Ağamalıoğlu, Ə.Orucov, Ə.Pepinov, C.Hacınski, S. Qənizadə və başqalarının fədakarlığı, milli mənafe uğrunda mübarizəsi yüksək dəyərləndirilirdi.

XX əsrin 20-ci illəri Bakı Dövlət Universitetinin tarixində mürəkkəb bir dövr kimi səciyyələndirilir. Belə ki, bu dövrdə Universitetdə elmi pedaqoji fəaliyyət yenidən qurulur. Sinfilik və partiyalılıq prinsipləri əsas götürülür. Bu dövrdə Ali Pedaqoji İnstitut BDU-nun Pedaqoji fakültəsinə birləşdirilir. Bundan əlavə, Universitetin Nizamnaməsində dəyişikliklər aparılır. Yeri gəlmişkən qeyd edək ki, Universitetin Nizamnaməsi tez-tez dəyişdirilirdi. Təkcə 1919-cu ildən 1930-cu ilə qədər bu dəyişiklik altı dəfə aparılmışdı.

Kitabın "İkinci nəfəs" adlı 1920-1930-cu illərin əhatə olunduğu hissəsində bu yenidənqurulma prosesinin təfərrüatları araşdırılır. Universitetdə milli məfkurə və milli özünüdərk prosesinin getdiyi və bunun narahatlıqlar yaratdığı təhlil edilir. Həm də bu dövrdə universitetin onillik yubileyinin keçirilməsinin planlaşdırıldığı və ona ciddi hazırlıq aparıldığı göstərilir. Müəyyən maneələrin olmasına baxmayaraq, yubiley təntənəli şəkildə keçirilir.

Bu illərdə universitetdə dörd fakültə fəaliyyət göstərirdi. Tibb, Pedaqoji, Şərq və Fəhlə fakültələrində ölkəmiz üçün ixtisaslı kadrlar hazırlanırdı. 10 il ərzində universitetin maddi-texniki bazası xeyli möhkəmləndirilmişdi. Onun institutları, kafedraları, laboratoriyaları, fakültələri və təqribən 100 min adda kitabı olan zəngin kitabxanası formalaşmışdı. Orada 5 elmi jurnal və tələbə qəzeti nəşr olunurdu.

Bütün bunlara baxmayaraq, 1930-cu il iyulun 10-da ali məktəblərin və ali texniki məktəblərin yenidən qurulması ilə əlaqədar olaraq Azərbaycan Dövlət Universitetinin fəaliyyəti dayandırıldı. Universitetin fakültələri əsasında yeni ali məktəblər yaradıldı. Müəllif yeni institutların yaradılmasını mütərəqqi bir hal hesab etsə də, universitetin bağlanmasını milli düşüncə və təfəkkürün inkişafına ağır zərbə kimi dəyərləndirmişdir.

## "Çərçivələr daralır"

Kitabın "Qayıdış, yaxud şimal küləkləri sərtləşir" adlı III fəslində Universitetin 1934-1941-ci illərdə fəaliyyəti əhatə olunur. Göstərildiyi kimi, o dövrdə universitetlərin bağlanması Ümumittifaq miqyaslı səhv idi və bu səhvin aradan qaldırılması istiqamətində tədbirlər görülürdü. Həmçinin kadr hazırlığı sahəsində prioritetlər də dəyişirdi. Artıq marksist əqidəli "kadrlar yetişdirmək" prioritet hesab olunurdu. Universitet çətinliklə yenidən fəaliyyətə başlasa da "çərçivələr daralır", yaradıcılıq imkanları genişlənmək əvəzinə, məhdudlaşdırılırdı. Yaradıcı insanlar "sərbəstliklərini yavaş-yavaş itirir və partiya nəzarətinin təzyiqini hiss etməyə başlayırdılar. İctimai elmlərlə məşğul olanlar daha çox təzyiqə məruz qalırdılar".

Bu bir tarixi həqiqətdir ki, Azərbaycan xalqının tarixi faciəsi 1936-cı ildə başlandı. Ziyalılar əleyhinə cəza tədbirləri həyata keçirildi. Salnamədə göstərildiyi kimi, bu, Universitetdən də yan keçmədi. Xalqımızın görkəmli ziyalıları - vaxtilə rektor işləmiş Tağı Şahbazi, Maqsud Məmmədov, Məmməd Kazım Ələkbərli, Bababəy Həsənbəyov, Abdulla Yusupov və Hüseyn Quliyev, bunlardan əlavə, 2 dekan, 2 dekan müavini, 4 kafedra müdiri, kitabxananın direktoru, elmi katib, xüsusi hissənin müdiri, partiya və komsomol təşkilatlarının rəhbərləri, 8 professor, ümumilikdə 100 nəfərə qədər əməkdaş "xalq düşməni", "türkçü", "turançı", "pantürkçü", "panislamçı" və s. damğalar vurularaq həbs olundu və ya güllələnməyə məhkum edildi.

Məlum olduğu kimi, Böyük Vətən müharibəsi keçmiş SSRİ ərazisində olan bütün milli respublikalara, o cümlədən Azərbaycana da böyük zərbə vurdu. Müharibədə iştirak edən 600 min azərbaycanlının 300 mindən çoxu ağır döyüşlərdə həlak oldu. İnsanlar ağır və əzablı günlərin şahidinə çevrildilər. Təbii olaraq bu ağır həyat sindromu Universitetə də təsir göstərdi. Salnamədə müharibə dövrünün məşəqqətlərini yaşayan Universitetin həyatı fakt və arqumentlərlə ümumiləşdirilir. "1941-ci il iyulun 22-də Böyük Vətən müharibəsinin başlanması ilə Universitetin dərs həyatı tamamilə pozuldu. Müharibə başlanan gün Universitetdə rektor Cəbrayıl Ələsgərov, 200 nəfər tələbə və müəllim könüllü olaraq cəbhəyə yola düşdü". Universitetin infrastrukturunda zəruri dəyişikliklər aparıldı. Azərbaycan Pedaqoji İnstitutu, Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutu, Karl Marks adına Xalq Təsərrüfatı İnstitutu, Azərbaycan Bədən Tərbiyəsi İnstitutu, Xarici Dil Müəllimləri İnstitutu Universitetə birləşdirildi. Bu birləşmələr 1943-1945-ci illərdə yenidən həmin təhsil müəssisələrinin ayrılması ilə başa çatdı.

Salnamədə kadr hazırlığı bu dövrün ciddi problemlərindən biri kimi təqdim olunur. Düzgün olaraq universitetin ciddi sınaq qarşısında qalması qeyd edilir. Professor-müəllim heyətinin sayının tələbata cavab vermədiyi, hətta kafedra müdirləri arasında professorların sayının az olması bildirilir. Buna baxmayaraq, 1943-cü ildə aspirantura bərpa olunur və həmin ildə I kursa 20 aspirant qəbul edilir.

## Dirçəliş və irəliləyişlər

Salnamədə Universitetin müharibədən sonrakı həyatı maraqla izlənən hissələrdəndir. Bu, bir həqiqətdir ki, 1941-1945-ci illərdə Universitet müharibə qanunları ilə yaşasa da, özünün ölkəmizdəki təhsil imicini qoruyub saxlaya bildi. Elə buna görə də müharibədən sonrakı illərdə onun tədris və elmi həyatında böyük canlanma yarandı. O dövrdə müharibənin törətdiyi ağır fəsadları aradan qaldırmaq, elmi və pedaqoji kadr hazırlığının keyfiyyətini yüksəltmək, aspiranturaya istedadlı gəncləri cəlb etmək, elmi dərəcələrin sayını artıraraq yeni fakültə yaratmaq və ixtisaslar açmaq, elmi və tədris laboratoriyalarını yenidən avadanlıqlarla təchiz etmək, ümumiyyətlə, Universietetin infrastrukturunu yeniləmək qarşıda duran əsas vəzifələrdən biri idi. Universitet kollektivi bu vəzifələri dərk edərək onların yerinə yetirilməsi istiqamətində fəaliyyətə başladı. Eyni zamanda 1947-1948-ci tədris ilində kitabxanaçılıq şöbəsi, 1949-cu ildə isə tədris-metodik şura yaradıldı, dərslik və dərs vəsaitləri hazırlandı. Bu işə yeni elmi qüvvələr cəlb olundular. Eyni zamanda universitetin maddi-texniki və tədris bazası möhkəmləndirildi.

Kitabda qeyd olunduğu kimi, həm də müharibədən sonra inkişafın ön cəbhəsi olan elmə xüsusi diqqət yetirildi. Bir çox azərbaycanlı aspirantlar Moskvada, Leninqradda (indiki Sankt-Peterburq), SSRİ-nin digər şəhərlərində və universitetin özündə müvəffəqiyyətlə dissertasiya müdafiə edərək professor-müəllim heyətinə daxil oldular.

Universitetin həyatında baş verən dəyişikliklər onu inkişafa doğru aparırdı. Xüsusilə kitabın "50 yaşın astanasında" adlı 1959-1969-cu illəri əhatə edən fəsildə bu xüsusi bir peşəkarlıqla ümumiləşdirilir. 50-ci illərin sonu, 60-cı illər "mülayim" bir dövr kimi təqdim edilir. Müəllif universitetin həyatında əks-səda verən bu dövrü "buzlar əriyir..." deyə səciyyələndirir. Doğrudan da, ali təhsilin məzmununda ciddi dəyişikliklər baş verir, yeni tədris planları, proqramları, dərslik və dərs vəsaitləri hazırlanır, yeni fakültələr və laboratoriyalar açılır, dissertasiyalar müdafiə olunur.

Beləliklə, Bakı Dövlət Universiteti respublika əhalisi arasında böyük nüfuz qazanır. Yetişdirdiyi mütəxəssislərlə kadr hazırlığı mərkəzinə çevrilir. Bu gün də ölkəmizin hər sahəsində özünün peşəkar fəaliyyəti ilə seçilən universitet məzunlarını aydın görmək mümkündür.

## İnkişafın yeni mərhələsində

XX əsrin 60-cı illərinin sonu, 70-ci illər Azərbaycanın elm, təhsil və mədəniyyət sahələrində yeni bir mərhələdir. Ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə gəlişi ölkəmizdə köklü dəyişikliklərlə nəticələndi. Təhsil dövlətin prioritet istiqamətlərindən birinə çevrilərək inkişaf etdirilirdi. Universitetin maddi-texniki bazası gücləndirilirdi, beynəlxalq əlaqələr sahəsində fəaliyyəti genişləndirilirdi.

Kitabın "Yeni mərhələ başlayır" adda 1970-1980-ci illəri əhatə edən fəslində ölkəmizdə gedən bu dəyişikliklərlə yanaşı, məxsusi olaraq Universitetin fəaliyyəti dəyərləndirilir: "Bu illərdə ADU özünün inkişafının yeni bir mərhələsinə qədəm qoydu. Qətiyyətlə demək olar ki, əvvəlki illərdə olduğu kimi, 70-ci illərdə də Azərbaycanda milli-mənəvi yüksəlişin önündə məhz Azərbaycan Dövlət Universiteti dayanırdı. Elə bu səbəbdən də universitetin məzunu olması ilə fəxr etdiyini bildirən Heydər Əliyev Bakı Dövlət Universitetini Azərbaycan xalqının milli sərvəti adlandırırdı".

Kitabın "Müstəqilliyə doğru" adlı VII fəslində 1981-1990-cı illər üzrə universitetin elmi və tədris həyatından bəhs olunur. O dövrdə universitetin xaricdə təhsillə bağlı mərkəzə çevrildiyi və bu işin təşkilində əsaslı rol oynadığı qeyd edilir. Həmçinin universitetin beynəlxalq əlaqələrinin genişlənməsindən, maddi-texniki bazanın möhkəmləndirilməsindən, keyfiyyətin yüksəldilməsindən söhbət açılır.

Kitabda Universitetin 1990-1998-ci illərdəki fəaliyyəti "Müstəqilliyin işığında" adlı fəsildə ümumiləşdirilir. Düzgün olaraq təhsil prosesində, xüsusilə Universitetlə bağlı hadisələr o dövrün tarixi kontekstində təqdim olunur. Müstəqilliyin ilk illərindəki çətinliklər, onların təhsil həyatına, xüsusilə Universitetdəki elmi, tədris fəaliyyətinə təsirlərdən bəhs olunur. Kitabda məhz ona da xüsusi olaraq diqqət yetirilir ki, nə qədər çətinliklər, qeyri-müəyyənliklər olsa da, universitet özünün bir tədris müəssisəsi kimi tarixi missiyasını dərk edərək uğurla həyata keçirdi. Eləcə də özünün elmi, tədris ənənələrini qoruyub saxlaya bildi.

## İslahatlar dövründə fəaliyyət

Kitabın son hissələri ("Genişlənən üfüqlər (1999-2010)" və "100 yaşlı universitet (2011-2020)" fəsilləri) Azərbaycanda həyata keçirilən islahatlar dövrünə həsr olunur. Universitetin bu islahatlarda fəal iştirakı ümumiləşdirilir. Kitabda qeyd olunduğu kimi, müstəqil Azərbaycanın təhsil quruculuğunu əhatə edən bu islahatlar dövründə ölkənin təhsil mənzərəsi dəyişir. Dünyanın mütərəqqi təhsil ənənələrinə doğru addımlar atılır. Planlı və ardıcıl tədbirlər həyata keçirilir. Bu dövrdə ən yadda qalan hadisə ondan ibarət olur ki, ölkə Prezidentinin 13 iyun 2000-ci il tarixli Fərmanına əsasən dörd ali məktəbə muxtariyyət verilir. Həmin ali məktəblərdən biri Bakı Dövlət Universiteti idi. Bundan əlavə, birmənalı şəkildə qeyd olunur ki, 1999-2010-cu illərdə Universitet ali təhsilimizin flaqmanı olmaq statusunu qoruyub inkişaf etdirir. Universitet bir əsrlik yubileyinə ən yeni nailiyyətlərlə gəlir: müasir məzmunun yaradılmasına, yeni ənənələrin formalaşmasına nail olur. Uğurlar isə bu günün gündəmində aydın görünür.

Bir-birindən maraqlı tarixi fakt və hadisələrlə zəngin olan bu kitabın bir mühüm cəhəti də hadisələri aydınlığı ilə təqdim etmək, rəvan bir təhkiyə üslubunda oxucuya çatdırmaqdan ibarətdir. Bu kitabda həm də "Universitet tarixinin ən mühüm hadisələri", "İstifadə olunmuş ədəbiyyat", "Ad göstəricisi" başlıqları ilə materialların verilməsi oxucuya yardım göstərmək, onun fəaliyyətinin səmərəliliyinə imkan yaratmaqdan ibarətdir.

Bu salnamə Bakı Dövlət Universitetinin bir əsrlik ömrünə sadəcə güzgü tutmaqla öz missiyasını bitirmir. O həm də paralellərin, müqayisələrin fonunda analitik yanaşmalar edir, oxucunu Bakı Dövlət Universitetinin nümunəsində təhsil düşüncələrinə təsir göstərərək onu da yaradıcı olmağa, fəallıq göstərməyə sövq edir.

**Ənvər ABBASOV,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim*




# Lütfi Zadənin həyatı və elmi yaradıcılığı ilə tanış olanda...

Yeganə müəllim sinfimizə gəlib bizə professor Lütfi Zadə haqqında danışanda bu azərbaycanlı alimin həyatı və elmi fəaliyyəti məni çox maraqlandırdı. Mən də bir çox şagirdlər kimi Lütfi Zadənin həyatı və elmi fəaliyyəti ilə bağlı olan məlumatları internet səhifəsindən oxudum, xeyli məlumat əldə etdim və ona bənzəməyə çalışdım. Onun kimi vətənimə, xalqıma xeyir gətirəcək, xalqımı düşünən bir vətəndaş olmaq fikri beynimdən keçdi.

Öyrəndim ki, Lütfi Zadə kimi tanıdığımız azərbaycanlı alimin əsl adı Lütfəli Rəhim oğlu Ələsgərzadədir. O, 1921-ci il fevralın 4-də Bakının Novxanı kəndində anadan olub.

O, ilk təhsilini Bakıdakı 16 nömrəli məktəbdə alıb. 10 yaşında ikən ailəsi ilə birlikdə Tehrana köçüb. 10 yaşlı Lütfi o vaxt rusdilli məktəbin üçüncü sinfini bitirmişdi. O, Tehranda təhsilini amerikalıların Albors missioner məktəbində davam etdirib.

Orta təhsilini tamamladıqdan sonra o, Tehran Universitetinin Elektrik mühəndisliyi fakültəsinə daxil olub. Böyük alimin Amerika həyatı 1944-cü ildən başlayır. Tehran Universitetini böyük uğurla başa vurduqdan sonra o, ABŞ-a gəlib və təhsilini Massaçusets Texnologiya İnstitutunda davam etdirib. 1947-ci ildə ata-anasını da yanına gətirən alim bu vaxt Kolumbiya Universitetində çalışırdı. O, 1948- ci ildə bu universitetdə elektrik mühəndisliyi üzrə magistr, 1957-ci ildə isə professor dərəcəsi alıb. Həmin vaxt Lütfi Zadə məşhur alim idi.

Kibernetikanın atası hesab olunan Norbert Vinerin tövsiyəsi ilə Kaliforniyaya, bu ştatdakı Berkli Universitetinə gəlib.Əvvəlcə çox çətinliklərlə üzləşsə də, alim sonralar şəraitə uyğunlaşıb və ömrünün sonuna qədər də Berkli Universitetinin professoru olaraq qalıb.

Lütfi Zadə 2017-ci il sentyabrın 6-da ABŞ-ın Kaliforniya ştatında 96 yaşında dünyasını dəyişmişdir. Bakıda dəfn olunmasını isə alim sağlığında vəsiyyət etmişdir. Alimlə AMEA-da vida mərasimi keçirilmişdir. Mərasimdə Prezident İlham Əliyev başda olmaqla dövlət və hökumət rəsmiləri, elm və mədəniyyət xadimləri iştirak etmiş, dünya şöhrətli alim Fəxri Xiyabanda torpağa tapşırılmışdır.

Onun elmi yaradıcılığından 6 mühüm nəzəriyyəsi bir xəzinə kimi elm və istehsalatda hazırda geniş şəkildə istifadə olunur. Ona dünya şöhrəti qazandıran elmdə inqilab hesab olunan qeyri-səlis məntiq nəzəriyyəsidir.

Qeyd etməliyik ki, qeyri-səlis məntiq nəzəriyyəsi 1980-ci illərdə yapon alimləri tərəfindən böyük maraqla qarşılanmışdır. Riyaziyyatın, kibernetikanın, informatika və hesablama texnologiyasının inkişafı tarixində yeni bir dövr açılmışdır. Bu nəzəriyyə bütün dünyada elmə, texnika və texnologiyaya geniş nüfuz etmişdir.

Bu gün Yaponiyanın "Mitsubishi", "Toshiba", "Sony", "Canon", "Sanyo", "Nissan", "Honda" və digər nüfuzlu şirkətləri qeyri-səlis məntiq nəzəriyyəsindən paltaryuyan maşınlar, kimyəvi təmizləyicilərin istehsalında, foto və videokameralar, avtomobillərin, qatarların idarə olunmasında geniş istifadə edirlər. Lütfi Zadə 1989-cu ildə qeyri-səlis məntiq nəzəriyyəsinin uğurlarına görə Yaponiyanın elm adamlarına verdiyi ən yüksək mükafat - "Honda" mükafatı ilə təltif olunub. Artıq amerikalılar da bu nəzəriyyədən yararlanmağa başlayıblar. Bu gün bu nəzəriyyə Amerikanın "General Motors", "General Elektrik", "Motorola", "Dupont", "Kodak" və başqa şirkətləri tərəfindən istehsalatda geniş tətbiq olunur.

Qeyri-səlis məntiq nəzəriyyəsindən başqa Lütfi Zadə 5 fundamental elmi nəzəriyyə də təklif etmişdir: "Təsərrüfat nəzəriyyəsi", "Sistemlər nəzəriyyəsi", "Sözlə işləyən kompüter nəzəriyyəsi", "Optimal süzgəclər nəzəriyyəsi" və "Soft kompütinq". Bundan başqa, Lütfi Zadənin elmdə Z-çevirmə kimi tanınan işi diskret və rəqəmli idarəetmə informasiya və kommunikasiya sistemlərinin yaradılmasının əsasını qoymuş elmi nəzəriyyədir.

2013-cü ilin 19-20 iyun tarixlərində Madrid şəhərində BBVA Fondu tərəfindən İnformasiya- Kommunikasiya Texnologiyaları kateqoriyasında Lütfi Zadə 400 min avro dəyərində mükafata layiq görülüb.

2016-cı ildə Lütfi Zadənin nəzəriyyəsi əsasında yapon alimləri tərəfindən ilk dəfə olaraq süni intellektə malik robot hazırlanıb. Alter adlı robot Tokiodakı Beynəlxalq Elm Muzeyində sərgilənib.

Fəxr ediləcək, nümunə olacaq dahi azərbaycanlı alimin xatirəsini əziz tutmaq, əbədiləşdirmək üçün 2019-cu ildə ADA Universitetində Lütfi Zadə adına təqaüd təsis edilib. Onun haqqında 1998-ci ildə "Uzaq və yaxın Lütfi Zadə" adlı film çəkilib. Kaliforniyanın Berkli şəhərində "İnformasiya Texnologiyaları üzrə Zadə İnstitutu" yaradılıb.

Lütfi Zadə dünyada əsərlərinə ən çox istinad edilən alim sayılır. Təkcə 10 il ərzində - 1990-2000-ci illərdə onun əsərlərinə 36 mindən çox istinad edilmişdir.

Lütfi Zadə bir çox xarici ölkə akademiyalarının üzvü seçilib. Çoxlu sayda mötəbər cəmiyyətlərin və fondların mükafatlarına layiq görülüb, medallarla təltif olunub. Onlarla xarici dövlət və ictimai təşkilatların fəxri doktoru adına layiq görülüb.

**SALEH ŞAHBAZLI,**
*Bakı şəhəri 69 nömrəli tam orta məktəbin VII "d" sinif şagirdi*

# Ömürboyu təhsil milli prioritet kimi

**Azərbaycan Respublikasının Təhsil İnstitutunun Ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar şöbəsinin müdiri Səbinə Babayeva “Azərbaycan müəllimi”nin suallarını cavablandırır.**



## *Səbinə Babayeva:*
## “Bu, əmək bazarında rəqabət aparmaq qabiliyyətini təmin edir”

*- Məlum olduğu kimi, ölkə başçısı tərəfindən təsdiq olunmuş Milli Prioritetlərdə yaxın illərdə “ömürboyu təhsil”ə xüsusi önəm verilməsi zərurəti vurğulanır. Ölkəmizdə XXI əsrin tələblərinə uyğun təhsil quruculuğunda “Ömürboyu təhsil” konsepsiyasının rolunu necə qiymətləndirirsiniz?*

- Gələcək illərdə reallaşdırılması nəzərdə tutulan insan kapitalı və müasir innovasiyalar məkanı prioritetinin mühüm komponentlərindən biri də kompetensiya, sosial vərdişlər və bacarıqların harmoniyada inkişafına əsaslanan “ömürboyu təhsil”ə xüsusi önəm verilməsidir. Ümumiyyətlə, ömürboyu təhsil dedikdə, təhsilə yeni yanaşma, bir insanın ömürboyu keçdiyi bütün təlim fəaliyyətləri nəzərdə tutulur ki, bu fəaliyyətlər şəxsi, sosial və ya peşəkar istiqamətdə bilik, bacarıq, səriştə və kvalifikasiyaların təkmilləşdirilməsi ilə nəticələnir. Ömürboyu təhsil konsepsiyasının ənənəvi təhsildən başlıca fərqi təhsil sistemi tərəfindən olunan təklifə deyil, əmək bazarının tələblərinə uyğun təlimə yönəlməsidir. Bu konsepsiya ayrı-ayrı şəxslərin təhsildən əmək bazarına və əmək bazarından təhsilə gedən yolda hər hansı bir maneə ilə rastlaşmadan təhsil sisteminə cəlb olunmasını təmin edir, həm formal təhsil çərçivəsində, həm də bu çərçivələrdən kənar - informal yollarla əldə edilmiş öyrənməni ehtiva edir. Artıq yeni biliklərin əldə edilməsi və formal təhsil sisteminin dəstəyi olmadan öz kompetensiyalarını inkişaf etdirmək bacarığı insanların əsas bacarıqlarından birinə çevrilir. Bu, dinamik, sürətlə dəyişən iqtisadi şəraitə çevik uyğunlaşmağa imkan yaradır. Müasir qlobal sosial və iqtisadi dəyişikliklərə adekvat cavab verə bilmək üçün ölkələrin kompetensiyalı vətəndaşlara, işçilərə, şirkətlərə ehtiyacı var. Odur ki, çox kiçik yaşlarından təqaüddən sonrakı dövrə qədər insanların bilik, bacarıq və kompetensiyaları əldə etməsi, onların daim yenilənməsi üçün imkanlar olmalıdır. Ölkəmiz də bu qlobal prosesin bir hissəsi olaraq, dünya iqtisadiyyatında baş verən fundamental dəyişikliklərə cavab vermək, rəqabətqabiliyyətli mütəxəssislərin yetişdirilməsini təmin edə bilmək üçün insan kapitalına investisiyaları artırır.

*- Hazırda Təhsil İnstitutu qarşısında “ömürboyu təhsil” sahəsində hansı vəzifələr durur və işlər həyata keçirilir? Hansı yeni təklif və layihələr barədə danışa bilərik?*

- Bildiyiniz kimi, Təhsil İnstitutu təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində, təhsilin nəzəri və təcrübi məsələləri ilə bağlı, o cümlədən, təhsil siyasəti üzrə prioritetlərin müəyyənləşdirilməsi və strateji planlaşdırma istiqamətləri üzrə tədqiqatların aparılmasında da dəstək göstərir. Eyni zamanda Təhsil İnstitutu təhsil innovasiyalarının yaradılması və tətbiqi ilə bağlı praktik layihələr həyata keçirir, bir sıra beynəlxalq qurumlarla da əməkdaşlıq edir. Əlbəttə ki, təhsil konsepsiyasının dəyişməsi uzun müddət və kompleks tədbirlərin görülməsini tələb edən bir prosesdir. Məhz “ömürboyu təhsil” konsepsiyasının tətbiqi ilə bağlı Təhsil İnstitutunda 2018-2020-ci illər ərzində Avropa İttifaqının maliyyə dəstəyi ilə “Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsinin İcrasına Dəstək” layihəsi həyata keçirilmiş, 2020-ci ildə “Ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar şöbəsi” yaradılmışdır. Layihə ilə əməkdaşlıq çərçivəsində səriştəəsaslı təhsilin təmin olunması üçün 24 peşə və kvalifikasiya standartı, həmçinin kurikulumlar, qeyri-formal və informal təhsilin tanınması ilə bağlı təlimatlar, 12 ixtisas üzrə 41 modul dərs vəsaiti hazırlanmış, həmin ixtisasların pilot təlimləri keçirilmiş, peşəyönümü xidmətinin təşkili ilə bağlı tövsiyələr hazırlanmışdır. Hazırda Təhsil İnstitutu ömürboyu təhsil konsepsiyasının tətbiqi ilə bağlı həm Təhsil Nazirliyi nəzdində, həm də müxtəlif dövlət qurumları ilə, Peşə Təhsili üzrə Dövlət Agentliyi ilə səriştəəsaslı məzmunun hazırlanması, Təhsildə Keyfiyyətin Təminatı Agentliyi ilə qeyri-formal və informal təhsilin tanınması, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə peşə və kvalifikasiya standartlarının hazırlanması zamanı müxtəlif bacarıqların inkişaf etdirilməsi üzrə sahə komissiyalarının tərkibində əməkdaşlıq edir. İnstitut tərəfindən ümumi təhsil müəssisələrində peşəyönümü xidmətinin təşkili ilə bağlı metodik vəsait, sorğu, müşahidə vərəqələri, diaqnostik testlər hazırlanır. Həmçinin müxtəlif ixtisasartırma kursları təşkil olunur ki, planlarımızda bu kursların sayının artırılması, əmək bazarında tələb olunan səriştələr üzrə kursların təşkili vardır. Paralel olaraq, beynəlxalq təşkilatlarla ömürboyu təhsil imkanlarının təmin edilməsi üçün müxtəlif komponentləri əhatə edən layihələrin həyata keçirilməsi ilə bağlı danışıqlar aparılır və layihə təklifi hazırlanır. İnstitut Təhsil Nazirliyinin yeni əmək bazarının ehtiyaclarına uyğun ixtisaslaşmaların yaradılmasını nəzərdə tutan innovativ magistratura layihəsi çərçivəsində də fəaliyyət göstərir.

*- Qloballaşma ömürboyu təhsil məsələsini bir daha aktuallaşdırdı. Belə bir ritorik sual qarşısındayıq: Biz niyə ömürboyu təhsil almalıyıq?*

- Ömürboyu təhsil əmək bazarının tələbinə uyğun formalaşmış cəmiyyətdə baş verən iqtisadi, elmi, texnoloji dəyişikliklərə çevik uyğunlaşmanı təmin edir. Əgər biz retrospektiv olaraq təhsil konsepsiyasına baxsaq, görərik ki, əvvəllər insanlar təhsillərini tamamlayaraq əmək bazarına daxil olur, bir peşədə, müəssisədə onilliklər boyu çalışır, ara-sıra ixtisasartırma kurslarına gedir, həmin peşədən də təqaüdə çıxırdılar. İqtisadiyyatın dinamikası da bunu şərtləndirirdi, belə ki, dünya iqtisadiyyatı daha stabil və proqnozlaşdırıla bilən idi.

Son illərin, xüsusən də minilliyin başlanğıcından etibarən texnoloji inkişaf sürəti, qloballaşmanın səviyyəsi, beynəlxalq rəqabətliliyin yüksəlməsi iqtisadiyyatın dinamikasına ciddi təsir göstərir. Dünya iqtisadiyyatındakı dəyişikliklər çox zaman proqnozlaşdırıla bilinmir. Texnoloji dəyişikliklərin təsiri altında peşələr daim dəyişir, bəzi ixtisaslar artıq arxa plana keçir, əmək bazarından çıxır, dövrün tələbinə uyğun yeni peşələr meydana gəlir, insanlar artıq nadir hallarda bir müəssisədə ömür boyu çalışırlar. Peşələrin əmək funksiyaları da dəyişir. Əvvəllər müəyyən bir iş üçün lazım olan bacarıqlar günümüzdə yetərli olmaya bilər. İşçilər çalışdıqları iqtisadi sektorun sürətli templəri ilə ayaqlaşmaq üçün daim yeni bilik və bacarıqlar əldə etməli olurlar. Bu proses təbii ki, təhsil sektorundan da yan keçmir. Artıq əmək bazarına cəlb olunmuş şəxslərin yenidən təhsilə qayıdaraq yeni yaranmış peşələrə yiyələnmələri vacib hala çevrilir. Ömürboyu təhsil bizdə əmək bazarında rəqabət aparmaq qabiliyyətini təmin edir. Hər hansı səbəbdən əmək bazarını tərk etməyə məcbur olmuş şəxslərə yenidən əmək bazarına qayıtmaq imkanı verir.

*- Necə bilirsiniz, ötən ilin əvvəlindən başlayan pandemiyanın ömürboyu təhsil konsepsiyasını daha da aktuallaşdırdığını və ya yeni imkanlar yaratdığını söyləmək olarmı?*

- Bildiyimiz kimi, pandemiya iqtisadiyyatın bütün sahələrinə mənfi təsir göstərdiyi kimi, təhsil sistemindən də təsirsiz ötüşmədi. Əyani təhsil onlayn və hibrid təhsil forması ilə əvəz olundu. Praktik bacarıqların tələb olunduğu peşələrlə bağlı ömürboyu təhsilə cəlb olunmuş vətəndaşlar üçün təşkil olunmuş qısamüddətli kursların fəaliyyətində durğunluq müşahidə olundu. Lakin bununla yanaşı, onlayn təhsilin genişləndiyi dövrdə insanların özünüinkişaf kurslarına cəlb olunmasında yeni imkanlar yarandı. Əvvəllər onlayn təlimlər nəticəsində əldə olunan bilik və bacarıqlar ciddi qəbul olunmurdusa, hazırda pandemiyanın yaratdığı mövcud şəraitdə onlayn təlimlərə üstünlük verilmiş və bu cür təlimlər nəticəsində əldə olunmuş sənədlərin işəgötürənlər tərəfindən qəbul edilməsi daha rahat baş tutmuşdur.



*- Ömürboyu təhsil əmək bazarının tələbləri ilə necə uzlaşmalıdır? Yəni, daha çox hansı peşələrə fokuslanmalıyıq? Təhsilalanlar gələcəkdə uğurlu olmaq üçün hansı səriştələri fasiləsiz öyrənməlidirlər?*

- Əmək bazarı və təhsil sistemi daima qarşılıqlı əlaqədə işləməyi tələb edir. Belə ki, ehtiyac duyulan ixtisaslar əmək bazarı araşdırılaraq müəyyən edilir və proqnozlaşdırılır, yeni ixtisasların yaradılması, mövcud ixtisasların məzmununa yenidən baxılması, səriştəəsaslı təlimə uyğunlaşdırılması, müvafiq təhsil proqramının işlənib hazırlanması prosesi əmək bazarının tələbləri əsasında həyata keçirilir. Bununla əlaqədar olaraq daim əmək bazarındakı tendensiyalar təhsil idarəçiləri tərəfindən mütəmadi izlənməli və yeniliklərə həssas reaksiya verilməlidir.

Daha çox hansı peşələrə fokuslanmalıyıq sualına gəldikdə, yerli kontekstdə bu suala ciddi bir araşdırma apararaq, yerli və beynəlxalq əmək bazarındakı tendensiyaları təhlil edərək əsaslandırılmış proqnozlaşdırma nəticəsində cavab vermək mümkündür. Beynəlxalq təcrübəyə müraciət etsək, Dünya İqtisadi Forumu tərəfindən 2020-ci ildə hazırlanmış hesabatda yaxın zamanda informasiya texnologiyaları, robototexnika, “yaşıl iqtisadiyyat” ilə əlaqəli peşələrə daha çox ehtiyac olacağı, administrativ və idarəetmə mütəxəssislərinə tələbin azalacağı proqnozlaşdırılır.

Təhsilalanların gələcəkdə uğur qazanması üçün lazım olan səriştələr hər bir peşə və ixtisasdan asılı olaraq fərqlidir. Lakin bəzi ümumi səriştələr var ki, işəgötürənlər gələcəyin mütəxəssislərində onların olmasına ehtiyac duyurlar. Bunların sırasına tənqidi düşüncə və təhlil, problemlərin həlli, insanlarla işləmək bacarığı, texnologiyanın istifadəsi və s. kimi səriştələr aiddir. Qeyd olunan səriştələrə əlavə olaraq yüksək adaptasiya qabiliyyəti və mütəmadi öyrənməni də aid etmək olar.

*- Rəqəmsallaşma dövründə yaşlı vətəndaşlarımızın (işçilərin) ömürboyu təhsilə cəlb olunmasının təşkili və əhəmiyyəti barədə deyə bilərsiniz?*

- Nəzərə alsaq ki, ömürboyu təhsil hər bir şəxsin istənilən zaman və istənilən yerdə təhsil ala bilməsi imkanını ehtiva edir və bir çox ölkələrdə əhalinin yaşlanması prosesi gedir, bütövlükdə yaşlıların təhsili ömürboyu təhsil konsepsiyasının əsas elementlərindəndir. Əlbəttə ki, yaşlı vətəndaşlarımızın müvafiq səriştələr əldə edə bilməsi, onlar üçün bərabər təhsil imkanlarının yaradılması çox vacibdir. Bu sahədə mütəmadi olaraq işlər həm dövlət qurumları, həm ayrı-ayrı müəssisələr tərəfindən aparılır. Təhsil Nazirliyi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə artıq bir neçə ildir ki, iş axtaran vətəndaşlarımız üçün qısamüddətli peşə kursları təşkil edir. Onların içərisində uzun müddət əmək bazarından və təhsildən uzaq düşmüş yaşlı şəxslər də vardır ki, onlar təkrarən lazımi səriştələri əldə edirlər. Yaxud digər bir nümunə olaraq, Təhsil İnstitutu tərəfindən həyata keçirilən STEAM layihəsi çərçivəsində 2020-ci ilin sentyabr-dekabr aylarında 513 müəllim robototexnika təlimlərinə cəlb olunmuşdur ki, onların da 15%-i 60 yaş üzərindəki vətəndaşımızdır.

**Oruc MUSTAFAYEV**

# "Biz Xarıbülbülü çəkirik"



Paytaxtın insanlarla qaynar olan bir guşəsində İ.Nəsiminin heykəlinin qarşısında, açıq havada yaddaşlarda uzun illər yaşayacaq olduqca maraqlı bir tədbir keçirilib. 44 günlük Vətən Müharibəsində tarixi qələbə qazanan Azərbaycanın döyünən ürəyi sayılan "Xarıbülbül" adı altında keçirilən tədbir xüsusi önəm daşıyırdı. "Biz Xarıbülbülü çəkirik" adlanan konsert proqramını Bakı şəhəri 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin direktoru Lalə Qəti açaraq qeyd edib ki, belə bir tarixi adı xarakterizə edən tədbiri təşkil etməklə biz böyüməkdə olan gənc nəslə vətənə, torpağa məhəbbət hissini aşılayırıq, onlarda vətənpərvərlik kimi müqəddəs hisslərin coşğunluğunu artırırıq. Mərkəzimizin istedadlı yetirmələri şairlərimizin, bəstəkarlarımızın ordumuzun qələbə əzmini tərənnüm edən şeir və mahnılarını, rəsm dərnəyinin həvəskar rəssamları isə uşaq dünyasının əsrarəngiz zənginliklərindən parlayan yaradıcılıq nümunələrini təqdim edəcəklər. Bəli, sabahın döyüşkən əsgərləri, qalib ordumuzun gələcək cəngavərləri olacaq uşaq və yeniyetmələrimizi gərəkdir ki, biz bu ruhda böyüdək, tərbiyə edək, Azərbaycanımıza dünyaca şərəf qazandıra biləcək layiqli vətəndaşlar kimi yetişdirək...

Sonra meydan istedad sahiblərinə verilib. Tədbirdə mərkəzin rəsm və dekarativ-tətbiqi sənət dərnəyi üzvlərinin böyük və kiçikhəcmli "Xarıbülbül" maketlərinin üzərində yaratdıqları "Qarabağ abidələri", "Qarabağ xalçaları", "Qarabağ mədəniyyəti, "Qarabağ atları" və "Qarabağ milli geyimləri" kimi dərin məna və məzmun kəsb edən kompozisiyaları həyəcansız seyr etmək mümkün olmayıb. Mərkəz üzvlərinin ifasında vətən, torpaq, ana haqqında səslənən şeir və mahnılar da tədbir iştirakçılarında eyni əhvali-ruhiyyə yaşadıb. Uşaq və yeniyetmələrin öz istedad və bacarıqlarını həvəslə nümayiş etdirdikləri konsert proqramında Təhsil Nazirliyinin Məktəbdənkənar fəaliyyətin təşkili şöbəsinin müdiri Elnur Əliyev, Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Gülarə Verdiyeva, Xalq rəssamı Arif Hüseynov, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev və digər qonaqlar iştirak ediblər.

**Sifai SƏFƏROVA**


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti,
529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4161 **Sifariş** 1091

**Məsul növbətçi:** O.Mustafayev


# Etibarsız sayılır

**Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbi** tərəfindən 1988-ci ildə Qasımova Sədaqət Kamil qızına verilmiş ИТ-032226 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Müəllimlər İnstitutu** tərəfindən 2005-ci ildə Həsənova Xəyalə Şakir qızına verilmiş B-054460 nömrəli bakalavr fərqlənmə diplomu itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 12 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Ağayeva Xalidə Zülfüqar qızına verilmiş A-116325 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Politexnik Texnikumu** tərəfindən 1985-ci ildə Mikayılov İsrafil Hacımayıl oğluna verilmiş ЗТ-026115 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** tərəfindən 2011-ci ildə Nəzərov Rauf Vəzir oğluna verilmiş B-213093 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şəki Müəllimlər İnstitutu** tərəfindən 2015-ci ildə Qurbanova (Rusdanova) Lalə Akif qızına verilmiş AN-065446 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Dövlət Universiteti** tərəfindən 2001-ci ildə Musayev Elşad Surxay oğluna verilmiş A-085394 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universitetini** 2017-ci ildə bitirmiş Həmidov Toğrul Bəxtiyar oğluna 2018-ci ildə verilmiş A-137014 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Sağlamlıq imkanları məhdud, valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 4 nömrəli Respublika xüsusi internat məktəbini** 2013-cü ildə bitirmiş Əliyeva Validə Nahid qızına verilmiş D-004697 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 7 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Qulaməliyeva Həmiyyə Rəhimbala qızına verilmiş B-222408 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 51 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Xəlilli Əhməd Atəş oğluna verilmiş A-188081 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2018-ci ildə Şükürova Aytac Zəhim qızına verilmiş C-016256 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Ankara Məktəbi-Məktəb Liseyi** 2009-cu ildə bitirmiş Bayramov Emil Elman oğluna verilmiş B-616240 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 3 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Məmmədova (Ağamalı) Ruhiyyə Valeh qızına verilmiş A-214919 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayon** P.Osmanov adına 2 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Kərimov Ariz Sədiyar oğluna verilmiş B-401560 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 214 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Mustafayev Anar Əliəhməd oğluna verilmiş B-374626 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** Novruzov qardaşları adına 36 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Hüseynova Çinarə Ağacan qızına verilmiş A-326799 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Quba Peşə Liseyi** tərəfindən 2005-ci ildə Mamasifov İntiqam İsmayıl oğluna verilmiş BB-006240 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Goranboy Peşə məktəbi** tərəfindən 1990-cı ildə Qəhrəmanova Nailə Fərəməz qızına verilmiş Б-504848 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Yevlax rayon** Əkşəm kənd tam orta məktəbi 2011-ci ildə bitirmiş Mirzəyev Rizvan Çingiz oğluna verilmiş A-074434 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**H.Sarabski adına 7 nömrəli Uşaq Musiqi Məktəbi** tərəfindən 2020-ci ildə Qafarzadə Məhəmməd Teyyub oğluna verilmiş C-0825 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**H.Sarabski adına 7 nömrəli Uşaq Musiqi Məktəbi** tərəfindən 2020-ci ildə Rüstəmzadə Məhəmməd Rüstəm oğluna verilmiş C-0820 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 1999-cu ildə Mehdiyeva Aytən Əlövsət qızına verilmiş A-031109 nömrəli fərqlənmə bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**2 nömrəli Bakı Baza Tibb Məktəbi** tərəfindən 2007-ci ildə Rüstəmova Elzadə Əflatun qızına verilmiş BB-II-051870 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**M.Əzizbəyov adına Qırmızı Əmək Bayrağı Ordenli Azərbaycan Neft və Kimya İnstitutu** tərəfindən 1989-cu ildə Balayeva Elza Ağaqulu qızına verilmiş PB-044986 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2011-ci ildə Əliyeva Nəzrin Şahin qızına verilmiş BB-I-017445 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Qusar** rayon Kirig kənd tam orta məktəbi 2010-cu ildə bitirmiş Qədimov Murad Eldar oğluna verilmiş B-727872 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar şəhər** 2 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Babayeva Nigar Elşən qızına verilmiş B-417344 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Balaqusar kənd tam orta məktəbi 2000-ci ildə bitirmiş Rəsulova Elnarə Abusardar qızına verilmiş A-460124 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Tərtər rayon** Azad Qaraqoyunlu kənd tam orta məktəbi 2003-cü ildə bitirmiş Hüseynov Azər Şaiq oğluna verilmiş 648953 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Sərhədabad kənd tam orta məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Cəfərov Elşən Oktay oğluna verilmiş 03 nömrəli şəhadətnamə əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 23 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş İbrahimov Cavanşir Cangir oğluna verilmiş AN-295753 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universitetini** 1996-cı ildə bitirmiş Babayev Kənan Məcnun oğluna 1997-ci ildə verilmiş AB-I-052856 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini** 2013-cü ildə bitirmiş Qafaqova Nərmin Eldar qızına 2014-cü ildə verilmiş A-004725 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 229 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Aslanova (Vəliyeva) Elnurə Aslan qızına verilmiş B-258410 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Balakən rayon** Talalar 1 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Əhmədov Nail Elşən oğluna verilmiş A-373943 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş Dövlət Humanitar Kolleci** tərəfindən 2018-ci ildə Firdunzadə Murad Feruz oğluna verilmiş AA-112591 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 8 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Ələkbərova Aygün Kamil qızına verilmiş B-504595 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 14 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş Məmmədova Sədaqət Məhəmməd qızına verilmiş A-160110 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 7 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Abdullayev Rəşad Zakir oğluna verilmiş A-328186 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** 46 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Səlimov Natiq Şirvan oğluna verilmiş 048441 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad İnstitutu** tərəfindən 1992-ci ildə Hüseynova (Səmədova) Sədaqət Əliəşrəf qızına verilmiş ЦВ-858705 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 25 nömrəli tam orta məktəbin IX sinfini 2020-ci ildə bitirmiş Ağayev Fərid Sadəddinoviçə verilmiş C-357901 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir Tibb Kolleci** tərəfindən 2011-ci ildə Haşımova Leyla Rüfət qızına verilmiş AA-005257 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**S.M.Kirov adına Qırmızı Əmək Bayrağı Ordenli Azərbaycan Dövlət Universiteti** tərəfindən 1984-cü ildə Baxışov Eldar Nurullah oğluna verilmiş ЦВ-047172 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 5 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Bilalzadə Rinad İlhamoviçə verilmiş B-161697 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Ə.Cəmil adına Zəyəm qəsəbə tam orta məktəbi 2017-ci ildə bitirmiş İsgəndərov Nurxan Sevxan oğluna verilmiş E-082492 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 158 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş İslamova Elnarə Adil qızına verilmiş B-003903 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Hacıqabul Rayon Təhsil Şöbəsinin kollektivi və rayon təhsil işçiləri şöbənin sabiq müdiri Şükür Məmmədova həyat yoldaşı

**MEHRİBAN XANIMIN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İdrak Liseyinin rəhbərliyi və pedaqoji kollektivi liseyin laboratoriya müdiri

**FƏTTAH QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İdrak Liseyinin rəhbərliyi və pedaqoji kollektivi liseyin əməkdaşı Rövşanə Nəcəfovaya anası

**UMCAHAN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

REYTİNQ

# Dünya güclü ali təhsil şəbəkəsindən faydalanır




## Beynəlxalq tədqiqatda Azərbaycanın iki universiteti də yer alıb

**Oruc MUSTAFAYEV**

Böyük Britaniyanın “QS World University Rankings” nəşri 2021-2022-ci tədris ili üzrə dünyanın ən yaxşı universitetlərinin növbəti reytinq sıralamasını (QS World University Rankings 2022 ) dərc edib. Bu il reytinq rekord sayda - 1300 universiteti əhatə edir ki, bu da ötən illə müqayisədə 10 faiz çoxdur. Bu, QS-in bu günə qədərki ən böyük tədqiqatı deməkdir.

Reytinqə əsasən dünyanın ən yaxşı universitetlərinin siyahısına ardıcıl olaraq 10-cu ildir ki, Massaçusets Texnologiya İnstitutu (MIT) başçılıq edir.

İnstitutun prezidenti Rafael Reyf MIT-ın uğurunu belə qiymətləndirir: “Biz, Massaçusets Texnologiya İnstitutunu olduğu kimi edən müəssisəmizin və müəllimlərimizin, işçilərimizin, məzun və tələbələrimizin tanınmasını dərindən dəyərləndiririk, biz həm də bütün dünyada akademik institutların nailiyyətlərinə son dərəcə heyran qalırıq. Dünya insanlığa saysız-hesabsız üstünlüklər gətirən güclü ali təhsil şəbəkəsindən, fundamental kəşflərdən novator qərarlara qədər, iqlim və sağlamlıq sahəsində mövcud problemlərdən, istedadların növbəti nəsillərinin formalaşmasına qədər faydalanır. Biz fəxr edirik və minnətdarıq ki, birlikdə dünyanı daha yaxşı etmək istəyən alimlər, tədqiqatçılar və müəllimlər kimi bu böyük insan cəmiyyətinə mənsubuq”.

Yeni reytinqdə M.V.Lomonosov adına Moskva Dövlət Universiteti Rusiyanın ən yaxşı ali məktəbi və top-100 -lükdə təmsil olunan yeganə ali təhsil müəssisəsi kimi 78-ci yeri tutub. Artıq beşinci ildir ki, MDU dünyanın ən yaxşı 100 universiteti arasında mövqeyini qoruyub saxlayır. Bu uğurdan danışan MDU-nun rektoru akademik V.A.Sadovniçi qeyd edib ki, ötən beşillik universitetin inkişafında bir çox cəhətdən bir dönüş nöqtəsi olub: “Biz universitetin inkişafı üçün yeni proqram qəbul etdik, fənlərarası elmi-təhsil məktəblərinin prioritet istiqamətləri üzrə unikal layihənin icrasına başladıq, universitetin rəqəmsal və innovativ inkişafına üstünlük verdik. Bütün bunlar universitetin intellektual potensialını birləşdirməyə, mövcud olan və yeni təhsil trayektoriyalarını yenidən təşkil etməyə imkan verdi”.

Qlobal reytinqdə ölkəmizi müvafiq olaraq Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) və Bakı Dövlət Universiteti (1001+ aralığında) təmsil edir.

Bu il QS institusional reytinqinə 97 ölkədən 1300 ali təhsil müəssisəsi daxil olub. Bununla yanaşı, 6400-dən çox ali məktəbə tədqiqatda iştirak etməyə icazə verilib. Builki reytinqin ilk 100-lüyündə ABŞ-ın 26, Böyük Britaniyanın 18 universiteti yer alıb.

Universitetlərin fəaliyyətləri qiymətləndirilərkən akademik dairələrin 130 mindən çox və işəgötürən təşkilatların 75 min nümayəndələri tərəfindən aparılan sorğuların nəticələri nəzərə alınıb. Tədqiqat metodologiyası reytinqin tərtib edilməsi üçün altı əsas göstəricini əhatə edir - akademik nüfuz, işəgötürənlər arasında nüfuz, müəllimlərin və tələbələrin sayının nisbəti, bir müəllim və əməkdaşa düşən sitatların sayı, əcnəbi müəllimlərin və əməkdaşların payı, əcnəbi tələbələrin sayı.

Reytinqlə daha ətraflı *www.topuniversities.com/university-rankings/world-university-rankings/2022* səhifəsindən tanış olmaq olar.

| Reytinq | Ali məktəbin adı | Ölkə |
|---|---|---|
| 1 | Massachusetts Institute of Technology (MIT) | ABŞ |
| 2 | University of Oxford | Böyük Britaniya |
| =3 | Stanford University | ABŞ |
| =3 | University of Cambridge | Böyük Britaniya |
| 5 | Harvard University | ABŞ |
| 6 | California Institute of Technology (Caltech) | ABŞ |
| 7 | Imperial College London | Böyük Britaniya |
| =8 | ETH Zurich (Swiss Federal Institute of Technology) | İsveçrə |
| =8 | UCL (University College London) | Böyük Britaniya |
| 10 | University of Chicago | ABŞ |
| 11 | National University of Singapore (NUS) | Sinqapur |
| 12 | Nanyang Technological University, Singapore (NTU) | Sinqapur |
| 13 | University of Pennsylvania | ABŞ |
| =14 | Ecole Polytechnique Fédérale de Lausanne (EPFL) | Fransa |
| =14 | Yale University | ABŞ |
| 16 | University of Edinburgh | Böyük Britaniya |
| 17 | Tsinghua University | Çin |
| 18 | Peking University | Çin |
| 19 | Columbia University | ABŞ |
| 20 | Princeton University | ABŞ |
| 21 | Cornell University | ABŞ |
| 22 | University of Hong Kong (UKU) | Honkonq |
| =23 | University of Tokyo | Yaponiya |
| =23 | University of Michigan-Ann Arbor | ABŞ |
| 25 | Johns Hopkins University | ABŞ |
| 26 | University of Toronto | Kanada |
| =27 | McGill University | ABŞ |
| =27 | Australian National University | Avstraliya |
| =27 | University of Manchester | Böyük Britaniya |
| 30 | Northwestern University | ABŞ |
| 31 | Fudan University | Çin |
| 32 | University of California, Berkeley (UCB) | ABŞ |
| 33 | Kyoto University | Yaponiya |
| 34 | Hong Kong University of Science and Technology (HKUST) | Honkonq |
| 35 | King's College London | Böyük Britaniya |
| 36 | Seoul National University | Cənubi Koreya |
| 37 | University of Melbourne | Avstraliya |
| 38 | University of Sydney | Avstraliya |
| 39 | Chinese University of Hong Kong (CUHK) | Honkonq |
| 40 | University of California, Los Angeles (UCLA) | ABŞ |
| 41 | KAIST - Korea Advanced Institute of Science & Technology | Cənubi Koreya |
| 42 | New York University (NYU) | ABŞ |
| 43 | University of New South Wales (UNSW Sydney) | Avstraliya |
| 44 | Universite PSL | Fransa |
| 45 | Zhejiang University | Çin |
| 46 | University of British Columbia | Kanada |
| 47 | University of Queensland | Avstraliya |
| 48 | University of California, San Diego (UCSD) | ABŞ |
| 49 | London School of Economics and Political Science (LSE) | Böyük Britaniya |
| =50 | Shanghai Jiao Tong University | Çin |
| =50 | Technical University of Munich | Almaniya |
| 52 | Duke University | ABŞ |
| =53 | Carnegie Mellon University | ABŞ |
| =53 | City University of Hong Kong | Honkonq |
| 55 | University of Amsterdam | Niderland |
| 56 | Tokyo Institute of Technology | Yaponiya |
| 57 | Delft University of Technology | Niderland |
| 58 | Monash University | Avstraliya |
| 59 | Institut Polytechnique de Paris | Fransa |
| 60 | Brown University | ABŞ |
| 62 | University of Warwick | Böyük Britaniya |
| 62 | University of Bristol | Böyük Britaniya |
| 63 | Ruprecht-Karls-Universitat Heidelberg | Almaniya |
| 64 | Ludwig-Maximilians-Universität München | Almaniya |
| 65 | Universiti Malaya (UM) | Malayziya |
| 66 | Hong Kong Polytechnic University | Honkonq |
| 67 | University of Texas at Austin | ABŞ |
| 68 | National Taiwan University (NTU) | Tayvan |
| 69 | Universidad de Buenos Aires (UBA) | Argentina |
| =70 | KU Leuven | Belçika |
| =70 | University of Zurich | İsveçrə |
| 72 | Sorbonne University | Fransa |
| 73 | University of Glasgow | Böyük Britaniya |
| 74 | Korea University | Cənubi Koreya |
| =75 | Osaka University | Yaponiya |
| =75 | University of Wisconsin-Madison | ABŞ |
| 77 | University of Southampton | Böyük Britaniya |
| 78 | Lomonosov Moscow State University | Rusiya |
| =79 | University of Copenhagen | Danimarka |
| =79 | Yonsei University | Cənubi Koreya |
| 81 | Pohang University of Science and Technology (POSTECH) | Cənubi Koreya |
| =82 | Durham University | Böyük Britaniya |
| =82 | Tohoku University | Yaponiya |
| =82 | University of Illinois at Urbana-Champaign | ABŞ |
| =85 | University of Auckland | Yeni Zelandiya |
| =85 | University of Washington | ABŞ |
| 87 | Lund University | İsveç |
| 88 | Georgia Institute of Technology | ABŞ |
| 89 | KTH Royal Institute of Technology | İsveç |
| 90 | University of Birmingham | Böyük Britaniya |
| 91 | University of St Andrews | Böyük Britaniya |
| 92 | University of Leeds | Böyük Britaniya |
| 93 | University of Western Australia | Avstraliya |
| 94 | Rice University | ABŞ |
| 95 | University of Sheffield | Böyük Britaniya |
| 96 | University of Pennsylvania | ABŞ |
| 97 | Sungkyunkwan University (SKKU) | Cənubi Koreya |
| 98 | University of Science and Technology of China | Çin |
| 99 | Technical University of Denmark | Danimarka |
| 100 | University of North Carolina, Chapel Hill | ABŞ |